İRFAN

№ 59 Oktyabr 2011 İctimai fikir jurnalı 3 AZN



HƏCCİNİZ YARADANA HİCRƏT OLSUN

İRFAN
Oktyabr/2011/№:59
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2011 © All Rights Reserved
Created and supported by "irfan"

Abunə və reklam işlərindən məsul:
Niyazi YUSİFOV
Tel: 051 920 79 14

Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 30 manat
Xarici ölkələr üçün 60 avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Əziz Oxucu!

İrfan jurnalı yeni bir mövsümün astanasında mərhəba deyir sizlərə. Bəli, yeni mövsümün astanasındayıq. Yaxınlaşmaqda olan həcc mövsümü bütün müsəlman dünyasında zəvvarların yol hazırlıqlarına başlaması ilə yadda qalır. Bütün dünya müsəlmanlarının qibləsi olan Kəbənin və Peyğəmbərlər Sultanının məzarının olduğu müqəddəs məkanlara səfər hazırlıqları həyəcanlı hisslərlə özünü göstərir. Vaxtilə yetmiş illik Sovetlər dönəmində dədə-babalarımızın həsrət qaldığı o mübarək bölgələrə bu gün şükürlər olsun ki, rahatlıqla getmək fürsəti var. Bunun üçün nə qədər şükür etsək, yenə azdır. Hər il yüzlərlər, minlərlə zəvvarlarımızı yola salırıq. İrfan jurnalı hər il bu mövzulara kifayət qədər yer ayırır. Bu dəfə isə jurnalımızın demək olar ki, tamamını yol üstə olan həcc namizədlərimizi hazırlayacaq yazılara həsr etdik. Yenə bir-birindən maraqlı yazılarla görüşünüzə gəldik.

Əziz Oxucu!

Bu sayımızda *"Rənglərin qardaşlığı"* başlıqlı yazıda Kəbənin müsəlmanları birləşdirən tərəflərini, sirlərlə dolu həcc ibadətinin hikmətlərini oxuyacaqsınız. *"Yenidən doğulmaq"* yazısı həcc ibadətinin insanı günahlardan necə təmizlədiyindən bəhs edir. Şeyx Şibli həzrətlərinin həclə bağlı nəfsi ilə olan söhbətini xüsusi səhifə olaraq hazırlayıb sizə təqdim edirik. Həmçinin bu xüsusda daha təcrübəli mütəxəssislərdən olan, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Eldar Mikayıl-zadə ilə, tanınmış müğənni Hacı Nadir Bayramlı ilə, Gəncliyə Yardım Fondunun əməkdaşı Hacı Zəki Şahin ilə qısa reportajlarımız oldu. Onları da sizə təqdim edirik. Möhtərəm yazar və könül insanın qələmə almış olduğu *"Həcci-Məbrur və Ümrə"* yazısı isə əminik ki, bütün həcc səfərinə hazırlaşanlara rəhbər olacaqdır. Əminik ki, yazarlarımızın *"Qətiyyət İmtahanını Keç"*, *"Özünüzü cəhənnəm atəşindən qoruyun"*, *"Tövbə"*, *"Zəiflərin Yardımı"*, *"Yetkin Duyğular"* və digəg məqalələr hər biriniz tərəfindən bəyəniləcək.

Əziz Oxucu!

İrfan jurnalı müqəddəs səfərə hazırlaşan bütün zəvvarlarımızı indidən bu gözəl yolçuluğa uğurlayır, hacı adını alaraq sağ-salamat vətənə qayıtmalarını arzulayır!

Sorma hər kişinin əslin izzətindən bəllidir
Söhbəti irfan görənlər xidmətindən bəllidir.
Nəsimi

ŞEYX ŞİBLİ VƏ HƏCC İBADƏTİ
8

REPORTAJ
10

MÜƏLLİMİN GÜNDƏLİYİNDƏN
13

ƏVVƏL YOLDAŞ, SONRA YOL
İbrahim EROL
14

AZARKEŞLƏR
Elşən RZAYEV
16

REKLAM
Arif HAŞİMZADƏ
20

ÜRƏKLİ OL
Eldar KƏRİMOV
22

YETKİN DUYĞULAR
Hasan Enes ÜNLÜ
24

RƏNGLƏRİN QARDAŞLIĞI
Nurlan MƏMMƏDZADƏ

4

HƏCCİ-MƏBRUR VƏ ÜMRƏ
Osman Nuri TOPBAŞ

28

ÖZÜNÜZÜ CƏHƏNNƏM ATƏŞİNDƏN QORUYUN
Mübariz ƏLİOĞLU

26

İnsani-kamil olmaya lazım olan irfan imiş.
N. Misri

YENİDƏN DOĞULMAQ
Rüfət ŞİRİNOV

6

TÖVBƏ
Saleh ŞİRİNOV

18

QƏTİYYƏT İMTAHANINI KEÇ
İsmayıl VƏLİYEV

38

ZƏİFLƏRİN YARDIMI
Adem ŞAHİN
36

DƏMƏŞQ
Ömər MƏMMƏDOV
40

SUAL-CAVAB
Anar QURBANOV
42

MÜDRİKLƏRDƏN
ÖYÜDLƏR
Akif HÜSEYİNLİ
45

HİKMƏT LÖVHƏLƏRİ
Kamran MƏMMƏDOV
46

İLAHİ MÜJDƏ
Asim HƏMİDOV
48

MƏŞHURLARDAN
NÜANSLAR
Ülvi MƏMMƏDOV
50

HƏYAT DƏFTƏRİNDƏN
Elşad KƏRİMLİ
52

XƏBƏR
55

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru



RƏNGLƏRİN QARDAŞLIĞI

Müqəddəs dinimizin beş şərtindən biri olan həcc mövsümü artıq qapıdadır. Bəndələrinə saysız-hesabsız nemətləri ilə lütfkarlıq edən Uca Rəbbimiz zaman və məkan baxımından da bizə yaşadığımız həyat boyu müxtəlif imkan və şəraitlər hazırlamışdır. İlahi rəhmətin tüğyan etdiyi müstəsna zamanlardan biri də həcc mövsümüdür. Həcc mövsümü ümumi mənada zaman etibarilə, daha xüsusi mənada isə ziyarət olunacaq müqəddəs yerlər baxımından ilahi təcəllilərlə doludur. Elə bir məkan ki, Allah-Təala özü bu şəhərə and içərək (əl-Bələd, 1; ət-Tin, 3) oranın qiymətini biz bəndələrinə xatırladır. Həcc etmək Qurani-Kərimdə ilk məbəd olduğu vurğulanan (Ali-İmran, 96) Kəbəni ziyarətdir. İlk insanın var olmasından bəri var olan Kəbə və ətrafı oranı ziyarət edənlər üçün bərəkətli qılınmış və müəyyən təcəllilərə məkan olmuşdur. Bu barədə Hz. Peyğəmbər (s.ə.s) buyurur: "*Hacılar və ürmə edənlər Allahın ziyarətçiləridir. Ziyarət olunan, ziyarətçilərə nə isə verməyə, yəni ikram etməyə borcludur.*" Allahın zəvvarlara ən böyük ikramı isə onlarda yüksək mənəvi halların meydana gəlməsidir.

Həcc ibadətindən maksimum istifadə edə bilmək təfəkkürlə bu ibadətin dərinliklərinə nüfuz etməyə bağlıdır. İlk növbədə düşünmək lazımdır ki, həcc bir hicrətdir. İnsanın nəfsindən Rəbbinə hicrətidir. Günahlardan qaçışdır, həyatın geri qalan qismini yaxşı insan olaraq yaşamağa niyyətlənməkdir. Ərəfatda nəfsi ilə baş-başa qalaraq Rəbbini düşünməkdir.

Həcc rənglərin qardaşlığıdır. Uca kitabımızda buyurulan "ilahi boya"ya boyandıqdan sonra bütün rənglərin mənasını itirdiyi və beləliklə də əslində yeni məna qazandığı bir məkandır Kəbə. Bütün rənglərin qara rəngdə yox olması kimi insanların da rəng fərqi qara örtülərə bürünmüş Kəbənin başına dolanarkən, Həcərül-Əsvədi (qara daşı) salamlayarkən yox olur, aradan qalxır.

Qurban bayramından, dolayısıyla Kəbəni ziyarət təvafdan bir gün əvvəl hacıların Ərəfat adlanan dağda gecələməsi, dualar və zikrlər edərək ilahi nizamı təfəkkür etməsi bir növ insanın özünü bilməsi, tanıması və dərk etməsidir. Hz. Əlinin buyurduğu kimi "Özünü bilən, Rəbbini bilər" gerçəyinə əsasən də Ərəfatda özünü dərk edən bir insan həmçinin Rəbbini layiqincə tanımaq yoluna addımını atmış olur. Ərəfat kəlməsi tanımaq, tanış olmaq, qovuşmaq mənalarına gəlir. Hz. Adəmlə Həvva anamızın məhz bu yerdə bir-birinə qovuşmasına görə belə adlanan bu məkanda həmçinin insan özünü Rəbbinin hüzurunda hiss edir, Ona qovuşur, Onu dərk edir və tanıyır. Elə isə Ərəfat Allahı tanımaqdır.

Rəsulullahın və əshabi-kiramın gəzdiyi Məkkə, Mədinə küçələrində gəzmək, hər daşında, torpağında mübarək izlər olan bölgədə bir neçə gün yaşamaq, o havanı tənəffüs etmək insanda müxtəlif halların yaranmasına səbəb olur. İslam tarixinin acılı-şirinli xatirələrinə şahidlik edən bu torpaqlar hər bir müsəlman üçün ana vətən qədər əzizdir. Hədisi-şərifdə buyurulan "Möminlər bir divarın hörülmüş daşları kimidir" həqiqətinin insanlara aşılanmasıdır həcc. Həcc rənglərin qardaşlığıdır. Uca kitabımızda buyurulan "ilahi boya"ya boyandıqdan sonra bütün rənglərin mənasını itirdiyi və beləliklə də əslində yeni məna qazandığı bir məkandır Kəbə. Bütün rənglərin qara rəngdə yox olması kimi insanların da rəng fərqi qara örtülərə bürünmüş Kəbənin başına dolanarkən, Həcərül-Əsvədi (qara daşı) salamlayarkən yox olur, aradan qalxır. Dilindən, irqindən, millətindən asılı olmayaraq hər kəs yekvücud halda, hər gün namazda yönəldiyimiz Kəbənin ətrafına dolanaraq insanlıq adına birləşir. Bu, eyni zamanda müsəlmanların bir kəlmə ətrafında, bir amal uğrunda birləşməsinə zəmin hazırlayır. İslam mənsublarını birliyə səsləyir. Təvaf bu birliyin nişanəsidir.

Kəbəni təvaf edən insan əsrlər öncəsinə qayıdır. Eyni məkandan əsrlər öncəsində Allah Rəsulunun bir gecə Məscidi-Əqsaya, oradan da meraca yüksəldiyini düşünür. Deməli, Kəbə eyni zamanda Həzrət Peyğəmbərin merac yolçuluğuna başladığı yerdir. Bəlkə elə buna görə də "möminin meracı" adlanan namaz ibadətimizi yerinə yetirmək üçün Kəbəyə yönəlməyimiz vazkeçilməz fərzlərdən biridir. Bir sözlə; dərk edib anlayan üçün saymaqla qurtarmayacaq qədər təcəllilərlə doludur o mübarək torpaqlar.

Kəbəni həcc etməyin bir mənası da insanlara könül almağı öyrətməkdir. Belə ki, İslam anlayışına görə məscidlər Allahın evləridir. Kəbə üçün də "Beytullah – Allahın evi" deyilir, insanın qəlbi üçün də. Elə isə insan gözlə görünən Kəbəni təvaf edəedə, qəlb almağın zərurətini anlayır. Burada son sözü Hz. Mövlanaya verək: *"Əgər sənin könlün varsa, könül Kəbəsini təvaf et. Zira torpaqdan tikilmiş sandığın Kəbənin əsl mənası könüldür."*

Rüfət ŞİRİNOV
rufet_80@hotmail.com

YENİDƏN DOĞULMAQ...

Uca yaradanın ən ali varlıq olaraq xəlq etdiyi bəşər övladı nəfsə malik varlıq olduğuna görə hər biri mütləq günah işləmiş və ya xəta etmişdir. Hər insanın daxilində etmək istəmədiyi və etdiyinə görə peşmançılıq hissi keçirdiyi müəyyən günah və xətaları vardır. Məhz buna görə də Peyğəmbər əleyhissalam bizlərə müəyyən keyfiyyətləri əlimizdən çıxmadan dəyərini bilməyimizi və ən pak şəkildə Allahın hüzurna çıxmağımızı tövsiyə edir. Məsələn; yaşlılıq gəlmədən cavanlığın, xəstəlik gəlmədən sağlamlığın qədrini bilməyimizi tövsiyə etməsinin səbəbi də gecikmədən malik olduğumuz dəyər və nemətlərin qədrini bilməyi öyrətmək və layiqli şəkildə istifadə edərək şükrünü əda etməkdir.

Bəşər övladının ən çox unutduğu və xatırlama cəsarətini göstərə bilmədiyi xususlardan biri də ölüm və axirətdir. Ağıllı insan dünyada ikən axirətini qazanan insandır. Çünki dünya axirətin tarlasıdır. Faydalı şeylər əkilməlidir ki, axirətdə faydalı şeylər biçilsin. Qiyamət günündə bütün insanlar yenidən dirildilib sorğu-suala çəkildiyi zaman, yenidən dünyaya geri qaytarılmağı təmənni edəcək ki, işləmiş olduğu günahları bir daha işləməsin və ya savabları daha da çoxaltsın, axirət sərmayəsini daha da zənginləşdirsin. Bu barədə Qurani-Kərimdə belə buyurulur: **"Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi (dünyaya) qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq"– dediklərini görəydin!"** (əl-Ənam, 27)

Əslində Uca Allah bəndələrinə bu dünyada ikən müəyyən vasitə və səbəblərlə günahlarını bağışlaması üçün fürsətlər vermişdir. Məsələn; müəyyən vaxtlarda edilən duaların qəbul olunması, müəyyən gecələrdə edilən niyazların geri çevrilməməsi kimi həqiqətlər bunun isbatıdır. Bu vasitələrdən ən dəyərlisi və mötəbəri isə əlbəttə ki, mövsumunə yaxınlaşdığımız müqəddəs tor-

Maddiyyatın sıfırlandığı, mənəviyyatın zirvələşdiyi bir məkandır, o müqəddəs torpaqlar. Yenidən doğulmuş kimi günahsızlaşma fürsətinin verildiyi məkan və zamandır oralar. Əgər bir insan hesab günündə yenidən dünyaya dönərək daha çox savab işləməyi təmənni edəcəksə, o fürsəti həcc və ümrə edərək bu dünyada əldə edə bilər.

paqlara edilən həcc və ya il boyu xüsusilə də Ramazan ayında edilən ümrə ziyarətləridir. Günahkar insanların axirətdə *"Kaş ki, bizi (dünyaya) qaytaraydılar!"* təmənnilərini o müqəddəs məkanlarda xatırlamamaq mümkün deyil. Çünki hər kəsin bəyazlara bürünərək təvaf etməsi qiyamət səhnəsini xatırladır insana. Axirətdə olduğu kimi bütün maddiyyatın unudulub ixlas və səmimiyyətin ön plana çıxdığı bir səhnədir Kəbə səhnəsi. Maddiyyatın sıfırlandığı, mənəviyyatın zirvələşdiyi bir məkandır, o müqəddəs torpaqlar. Yenidən doğulmuş kimi günahsızlaşma fürsətinin verildiyi məkan və zamandır oralar. Əgər bir insan hesab günündə yenidən dünyaya dönərək daha çox savab işləməyi təmənni edəcəksə, o fürsəti həcc və ümrə edərək bu dünyada əldə edə bilər. Cünki müjdəni bizə Peyğəmbər əleyhissalam verir: *"Bir ümrə növbəti ümrəyə qədər işlənən günahlar üçün kəffarədir. Məqbul həccin qarşılığı ancaq cənnətdir."* (Buxari, Ümrə 1) Oraları səmimiyəti ilə ziyarət edib dönən insan həyatına necə davam edirsə, yenidən dünyaya göndərilsə də eyni şəkildə həyatına davam edəcəkdir. Odur ki, yenidən dünyaya göndərilmə imkanının verilməyəcəyi bir zamanda yenidən doğulmağı təmənni etməkdənsə, bu dünyada bizə yenidən doğulmaq üçün verilən fürsəti dəyərləndirməlidir, hər bir müsəlman. Tətil vaxtlarını və ya yay tətillərini dünyanın müxtəlif tətil yerlərinə gedərək maddi və mənəvi zərərə düşərək boş keçirməkdənsə, dünyanın ən gözəl mənzərəsi olan Kəbə mənzərəsini izləyərək və yüksək səviyyədə mənəviyyata bürünərək keçirmək daha faydalıdır.

İslamın bütün şərtlərinin müşəxxəs şəkildə sərgiləndiyi və yaşandığı məkanlardır, müqəddəs torpaqlar. İslamın yardımlaşma, birlik-bərabərlik, qardaşlıq dini olduğunu müşahidə etmək mümkündür, orada. Üstünlüyün sadəcə təqva ilə olduğunu görürsünüz orada. Çünki hər kəs eyni keyfiyyətdə libas geyinib, eyni ibadətləri eyni makanda edir. Dünyanın (maddi cəhətdən) ən zəngini ilə ən yoxsulu eyni ibadətləri edir, eyni məkanda gəzir. Allah qatında ən dəyərlimiz, təqva cəhətindən ən üstün olanımızdır." (Hucurat, 13) ayəsinin həqiqətini müşahidə edir və yaşayırsınız.

Xülasə, fərz olaraq ömründə bir dəfə yerinə yetirilən həcc günahlardan təmizlənmək üçün bir fürsətdir. Bu fürsətdən lazımlı şəkildə faydalanmaq, bu ibadətə ruhi və fiziki olaraq yüksək səviyyədə hazırlaşmaq lazımdır. Əlbəttə ki, ruhi hazırlığın başında ixlas, səmimiyyət gəlir. Çünki ixlas ibadətlərin özəyidir. Buna görə də həccə getməyi düşünən hər bir kəs qətiyyətlə riya və göstərişdən, haci adını qazanma kimi kimlərinsə yanında etibar qazanma qayğısından uzaqlaşmalıdır. Həcc əsnasında yaşadığı mənəvi həzz və duyğularını həyatın hər mərhələsinə və hər anına yaymağa çalışmalıdır. Günahlardan təmizlənərək yenidən doğulma fürsəti olduğunu unutmayaraq maksimun səviyyədə fürsəti dəyərləndirməlidir.

Allah hər bir müsəlmana məbrur (qəbul olunan) həc və ümrə etməyi və günahlardan təmizlənərək yenidən doğulmuş günahsız uşaq kimi dönməyi hər bir müsəlmana qismət etsin.

ŞEYX ŞİBLİ VƏ HƏCC İBADƏTİ

Şeyx Şibli həzrətləri həcc barəsində nəfsinə belə xitab edir:

Ey nəfsim! Həccə niyyət edib ehrama girdinmi?

Nəfsi: Bəli girdim.

Şeyx Şibli: Həyatındakı bu həcc niyyətindən başqa bütün niyyətlərin üstündən xətt çəkdinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə həccə niyyət etmədin. Ehram üçün paltarlarını çıxardınmı?

Nəfsi: Bəli çıxardım.

Şibli: Paltarı çıxardığın kimi, dünya işlərini də ürəyindən çıxardınmı?

Nəfsi: Xeyr çıxara bilmədim.

Şibli:Elə isə ehrama girmədin. Sonra qüsl edib təmizləndinmi?

Nəfsi: Bəli təmizləndim.

Şibli: Bəs, bu təmizliklə bədənindəki bütün pis xislətlər yox oldumu?

Nəfsi: Xeyr.

Şibli: Elə isə təmizlənə bilmədin. Təlbiyə gətirib «Ləbbeyk» dedinmi?

Nəfsi: Bəli.

Şibli: Yaxşı, bəs etdiyin təlbiyə kimi sənə cavab verildimi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə təlbiyə edə bilmədin və Rəbbinə səsini eşitdirə bilmədin. Hərami-Şərifə daxil oldunmu? Hərami-Şərifə girərkən bütün günahlarından imtina etdiyini söylədikdə, səndə Allah-Təaladan gələn mənəvi bir hal baş verdimi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə bunu da bacara bilmədin. Məscidi-Hərama girib Kəbəni gördünmü?

Nəfsi: Bəli.

Şibli: Allahı gözünlə görürmüş kimi ruhunda hiss etdinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə Kəbəni də görə bilmədin. Yaxşı, Kəbəni təvaf edib Həcərul-Əsvədə əlini sürtüb öpdünmü?

Nəfsi: Bəli.

Şibli: Bu cavabı alan Şibli həzrətləri həyəcanlanmağa başlayır. Sən nə söyləyirsən? Ey nəfsim, özünə gəl! Həcərul-Əsvədlə bu cür görüşən Haqqın amanına girər. Səndə belə bir hal oldumu?

Nəfsi: Xeyr.

Şibli: Elə isə bu vəzifəni də yerinə yetirə bilmədin. Yaxşı, təvafdan sonra iki rükət namaz qıldınmı? Allahın qatındakı mövqeyini anladınmı?

Nəfsi: Xeyr.

Şibli: Elə isə o namazı da qıla bilmədin. Bu vəzifələrdən sonra Səfa təpəsinə çıxıb yeddi dəfə təkbir alıb, həcci xatırlayıb, qəbul olmasını diləyib, təkbirlərin gerçək mənasını anlayaraq Səfa təpəsindən endinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə Səfa təpəsinə də çıxmış sayılmazsan. Səfadan Mərvəyə qaçarkən nəfsindən uzaqlaşıb, Haqqa qovuşmaq üçün Mərvəyə çatdıqda vüqar və sükunət halı hiss etdinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə səy də etmədin. Minaya çıxıb, etdiyin günahlardan tövbə edib, Məscidi-Hayfa girib-çıxarkən Allah qorxusundan titrəyib bu qorxunu başqa yerlərdə də hiss etdinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə bu vəzifəni də yerinə yetirə bilmədin. Ərəfatda vəqfəyə duranda xəlq olduğun, indi olduğun və sabah gedəcəyin yeri dərk etdinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə Ərəfat vəzifəsini də yerinə yetirə bilmədin. Müzdəlifəyə çatıb, Məşaril-Həramı görüb, özünü və dünyanı unudaraq, Allahı səmimi qəlblə zikr etdinmi?

Nəfsi: Xeyr.

Şibli: Elə isə o vəzifəni də yerinə yetirə bilmədin. Minada şeytanı daşlayıb, könlünü elm və iman nuruyla işıqlandırdınmı? Qurbanı kəsib, nəfsini qurban yerinə qoyub nəfsani arzularından sıyrıldınmı? Təraş olub, dünyəvi arzularını söküb atdınmı?

Nəfsi: Xeyr.

Şibli: Deməli, o vəzifələrini də layiqincə yerinə yetirə bilmədin. Ziyarət təvafını etdinmi? Bu təvafda kəramətən nəyə isə vaqif oldunmu? Çünki Rəsulullah (s.ə.s): «***Hacılar və ürmə edənlər Allahın ziyarətçiləridir. Ziyarət olunan, ziyarətçilərə nə isə verməyə, yəni ikram etməyə borcludur.***» buyurub. Şeyx Şibli həzrətlərinin nəfsi bu suallara da «Xeyr» cavabı verdikdə Həzrət: «**Elə isə ey nəfsim, necə həcc ediləcəyini dərk et və ondan sonra həcc vəzifəni yerinə yetir!**» dedi.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDR MÜAVİNİ HACI ELDAR MİKAYIL-ZADƏ

İrfan: Azərbaycanda hər il zəvvarların sayı durmadan artır. Bu nədən qaynaqlanır? Bəlkə o torpaqların cazibə qüvvəsidir insanları özünə çəkən. Həcc təəssüratlarınızı bizimlə bölüşün mümkünsə. Səfərə çıxmaq üzrə olan hacılara öz tövsiyələrinizi deyin.

Hacı Eldar: Mən burada həclə bağlı öz arzumu bölüşmək istərdim ilk növbədə. Düşünürəm ki, həcc proqramı bir az daha geniş olsa yaxşı olar. Məsələn Rəsulullahın anası Əminənin məzarında niyə dayanmayaq? İslam tarixini oxuduqca düşünürəm ki, çox əlamətdar yerləri ziyarət etmək lazımdır, dualar edilməli, namazlar qılınmalıdır həmin yerlərdə. Hz. Peyğəmbərlə, xəlifələrlə, səhabələrlə əlaqədar yerlərə baş çəkilməlidir. Onsuz da orada boş vaxt çox olur. Camaat bazarı gəzir. Ondansa dediyim kimi maraqlı, mənəviyyat hopmuş yerlər gəzilsə, daha yaxşı olar. Mən həmişə şeyxin müavini kimi qafilə rəhbəri olaraq getdiyimə görə zəvvarları qoyub gedə bilmirdim. İndi Özüm üçün ziyarət olunacaq yerlərin cədvəlini hazırlamışam. Bu dəfə istəyirəm ki, sərbəst olum və oraları ziyarət edim. Bu kimi yerlərdə müəyyən duyğuları hiss etmək mühümdür. Oralarda Allaha əl açılmalıdır, heç olmazsa iki rükət namaz qılınmalıdır və s. Məkkə və Mədinənin hər daşına mənəvi təcəllilər hopub. Mən istərdim ki, bu şüurla həcc edilsin. İslam tarixi, Peyğəmbərin həyatı öyrənilsə, dərk edildikdən sonra həcc olunsa tamam fərqli ibadət ab-havası yaşanar. Əlbəttə ki, oraya gedən hər kəs fərzi yerinə yetirir. Amma çalışıb bu duyğulara sahib olmaq mühümdür.

Məkkəyə "ümmül-qura" – "şəhərlərin anası" deyilir. Bu nə deməkdir? Ora əslində insanlığın anasıdır. Bizim hər birimizin çıxdığı rəhimdir. Mən Kəbəni ana göbəyi kimi görürəm. Biz ordan qidalanmışıq, o rəhimdən çıxmışıq. Mən düşünürəm ki, həcc bizim ana bətninə qayıdışımızdır. Peyğəmbər (s.ə.s) də hədisi-şərifində həcdən qayıdanların anadan yenidən doğulmuş kimi günahlardan paklanaraq qayıtdığını buyurur. Dediyim fikri təsdiq edir bu hədis. Deməli, biz yenidən doğuluruq dünyaya. Mən çox istərdim ki, təvaf edən insan nə üçün təvaf etdiyinin fərqində olsun. Onsuz da ibadət yerinə yetirilir, onsuz da həmin əziyyəti çəkir adam. Amma dərk etsə tamam fərqli feyz yaşayar insan. Təvaf nədir? Təvaf çox şeydir. Dünyanın, həyatın var olması təvaf üstədir. Ürəyimiz Kəbə kimidir, qanımız dövr edərək öz təvafını yerinə yetirir. Qan təvafı dursa, həyat bitər. Yer kürəsi günəşin başına dolanır. Bir an geciksə hər şey dağılar. Atomda təvaf var. Atomlar təvafını dayandırsa, əlimizdə tutduğumuz kiçik əşyalar həddən artıq ağır olar. İnsan təvaf edərkən Allaha "ləbbeyk" deyir. Yəni ey Rəbbim mən də sənin qoyduğun bu nizama qoşuluram. Kainatda qoy-

duğun nizamın bir parçası olduğumu dərk edirəm... Mədinə də ata evidir sanki. Mədinədə özümü daha yaxşı hiss edirəm. Orada gözəl hal var. Qədim kişilər deyərdilər ki; "Yer var yuxarıdan idarə olunur, yer var torpağın altından idarə olunur." Mədinə də yerin altından idarə olunan yerdir. Orada Rəsulullahdır rəhbər. Sanki adamı kənardan idarə edirlər. Əsas olan odur ki, hər bir hacı nə üçün həcc etdiyini, nə üçün ziyarətə gəldiyini dərk eləsin. Dediyim kimi, məhz onda tamam fərqli duyğular yaşanar.

GƏNCLİYƏ YARDIM FONDUNUN ƏMƏKDAŞI HACI ZƏKİ ŞAHİN

İrfan jurnalı: Zəki bəy! Siz dəfələrlə həcc ziyarətində olmusunuz. Bu ziyarətdə çox adamlar görmüsünüz. Azərbaycandan gedən hacılarla bağlı müşahidələriniz necədir? Gedəcək olan zəvvarlara hansı tövsiyələriniz var?

Hacı Zəki: İlk növbədə onu qeyd edək ki, 70 il Sovet rejimində yaşayan Azərbaycan xalqı uzun zaman həcc həsrətiçəkmişdir. O dövrdə tək-tük adamlar həccə gedə bilirdi ki, bu da böyük əziyyətlər nəticəsində mümkün olurdu. Bu gün şükürlər olsun ki, həccə getmək sərbəstliyi yaranmışdır və xalq bu fürsətdən lazımınca istifadə edir. Hal-hazırda həccə atla, dəvəylə, piyada getmiş babaların nəvələri oraya getmək üçün sözün yaxşı mənasında bir-biriylə yarışırlar. Bütün bunlar sevindirici haldır. Lakin könül istərdi ki, insanlar həccə getməzdən əvvəl oranın ab-havasını yaşasınlar. Burada ikən namazlara və s. fərz ibadətlərə riayət etsinlər. Hər bir müsəlman üçün vacib olan Qurani-Kərimi oxumağı bacarsınlar. Məkkədə başqa yerlərdən gələn hacıların rahatlıqla Kəbəyə baxaraq Quran oxuduğunun şahidi oluruq. Amma bizim hacıların əksəriyyəti təəssüf ki, bu xüsusda bir az geridə qalır. Həvəs var, amma bu işə vaxt ayırmırlar. Buna görə heç olmazsa həccə getmədən əvvəl burada kurslara gedib müqəddəs kitabımızı oxumağı öyrənmələrini tövsiyə edirəm. Söz açılmışkən qeyd edək ki, Quran oxumaq elə hamımızın borcudur. Rəbbimizin bizə göndərdiyi, doğru yol rəhbəridir Quran.

Dinin bəzi hökmləri var ki, onları həccə getmədən öyrənmək lazımdır. Qafqaz Müsəlmanları İdarəsi bu məsələdə iki-üç ay əvvəldən lazımi kursları keçir. Biz də həclə bağlı kitablar, CD-lər paylayırıq zəvvarlara. Bundan məqsəd onları maarifləndirməkdir. Həcc əslində çətin və şərəfli ibadətdir. Qayda-qanunlarını, fərz, vacib, sünnələrini öyrənmək lazımdır. Mümkün mərtəbə gənc yaşda getmək gərəkdir. Daha doğrusu belə deyək, ələ fürsət düşən kimi bunu dəyərləndirmək lazımdır. Həcc insanın həyatını dəyişdirir. İnsan hər şeydən uzaqlaşaraq özünü tamamən Allaha həsr edir bu ibadətdə. Mal və canı ilə Rəbbin rizasını qazanmaq üçün səy göstərir. Axirət mənzərəsini yaşayırsan orada və geri qayıdanda hər şeydən təmizlənmiş olaraq dönürsən. Buna görə də imkanı olan hər bir müsəlmanın ilk fürsətdə həccə getməsini qətiyyətlə tövsiyə edirəm.

TANINMIŞ MÜĞƏNNİ HACI NADİR BAYRAMLI

İrfan: Nadir müəllim, bildiyimizə görə bu yaxınlarda ümrə ziyarətindən qayıtmısınız. Bir neçə il əvvəl İslamın şərti olan həcc ziyarətini də yerinə yetirmisiniz. Bizimlə oralarla bağlı təəssüratlarınızı bölüşərdiniz mümkünsə. Oralara hansı atmosfer hakimdir?

Hacı Nadir: Əvvəlcə qeyd edim ki, gedib gözlə görməsəniz, oraları anlatmaq çox çətindir. Hətta imkansızdır. Sadəcə aciz kəlmələrlə ifadə edə bildiklərimizi dilə gətiririk biz. Hər şeydən əvvəl deyək ki, Kəbeyi-Müəzzəmə beytullahdır. Həmçinin bu səfərdə ziyarət ediləcək əsas yerlərdən biri də Həzrət Peyğəmbərin mübarək qəbri-şərifidir. Məhz buna görə də təyyarəyə minməzdən əvvəl insanın qəlbi ifadə olunması mümkünsüz hisslərlə dolur. Bir həyəcan basır adamı. Özünü unudur hər kəs. Təbii ki, çıxdığı səfərin fərqindədirsə. İnsan kimliyini, sahib olduğu peşəsini, yaxınlarını unudur bu yola addımını atanda. Həmçinin bir az da qorxu hiss edir qəlbində ki, bir növ Rəbbimin hüzuruna gedirəm, görəsən mən Ona layiqəmmi, bu səfərdən qayıdarkən əliboş qalmayacağam ki... Ramazan ayını orada keçirdim. İlk beş günü Mədinədə qaldıq və Peyğəmbərimizin məscidində ibadətlərimizi əda etdik. Yaxınlarımız, xalqımız üçün dualar etdik. Dualar içində ən çox tövbə-istiğfar yer alırdı. Sonra Məkkəyə yollandıq. Beytullahı görəndə həyəcan bürüdü bizi. Hava çox isti də olsa, orucumuzu tutmağa davam etdik. Qəlbimizdəki oralara olan susuzluq bizə oruclu ikən hiss edəcəyimiz susuzluğu hiss etdirmirdi. Hətta axşam azanından sonra iftarı açmaq heç yadımıza da düşmürdü. Bir də baxırsan ki, ətrafda hamı orucunu açır. Onda xatırlayırsan ki, sən orucunu açmalısan. Bu da oraların mənəvi ab-havasından irəli gəlir. Əsrimizin insanı o havanı tənəffüs etməlidir. Məhz onda dünya firavan olar. Bütün irqlərin, millətlərin qardaşlıq simvoludur həcc.

İlk dəfə həcc ziyarətində 2006-cı ildə olmuşam. Qayıdarkən öz-özümə sual verdim ki, görəsən mən bir daha buraya gəlmək istəyirəmmi? Həcc ibadətinin çətinliklərini, əziyyətini nəzərə alıb qərara gəldim ki, çətin gələrəm bir daha. Düşünürdüm ki, kimlərisə göndərərəm. Lakin Azərbaycana gələndən təxminən iki ay sonra oraları düşünüb ağlayırdım. Can atırdım ora. Bir neçə dəfə həccə getsəm də düşünürdüm ki, Ramazanda ümrə ziyarətinə getməliyəm. Şükür Allaha ki, Azərbaycanda ilk dəfə Ramazan ümrəsi üçün qafilə hazırlıqlaır başladı. Mən də oğlumla birlikdə bu qrupa qoşuldum. Onu da qeyd edim ki, Ramazan ümrəsi özünəməxsusluğu ilə seçilir. Ona görə hər kəsə tövsiyə edirəm Ramazan ümrəsini. Həzrət Peyğəmbər də Ramazan ümrəsiylə bağlı buyurur ki; "Kim Ramazan ayında mükəmməl bir ümrə edərsə, mənimlə həcc etmiş kimi savab alar." Təravih namazları, təhəccüd namazları, bu namazların sonunda edilən dualar insanı tamam fərqli atmosferə aparır.

MÜƏLLİMİN GÜNDƏLİYİNDƏN

Hər kəs xoş rəftara və təvəccöhə möhtacdır. İnsanlara göstərilən gözəl münasibət düşmən olanın düşmənliyini azaldır. Dost və yaxınlarınsa məhəbbət və yaxınlığını artırır.

***

Kobud, küsdürücü və sərt metodlarla insan tərbiyə olunmaz.

***

Nizam-intizama riayət bəhanəsiylə tərbiyəçinin əmri altında olanlara zülm etməsi heç vaxt xoş görülmür.

***

Həddən artıq sərtlikdən kin doğar. Həddən artıq yumşaqlıq da ciddiyyəti zədələyər. Müvəffəqiyyət bu ikisi arasındakı tarazlığı təmin edə bilməklə mümkündür.

***

Tərbiyəçi sözü mülayim və gözəl tərzdə söyləməli, daima xeyirli şeylərdən danışmalıdır. Çünki heç kim sərt sözlərdən və kobudluqdan razı qalmaz. Qəlblərə yol tapa bilməyin ən gözəl yolu şirin dil, mülayimlik və təvazökarlıqdır.

***

Özünü psixoloji cəhətdən yaxşı hiss etməyən təyyarə sürücüsünə uçmağa izin verilmədiyi kimi, əsəbi və ya gərgin bir tərbiyəçiyə də dərsə girmək üçün izin verilməməlidir.

***

Tərbiyəçi təlim, xəbərdarlıq və nəsihətlərini sükunətlə etməli, qarşısındakıları incidib küsdürəcək hərəkətlərin böyük bir qüsur olduğunu unutmamalıdır.

***

İnsan daima hissiyyatın təsiri altındadır. Onunla düşünüb qərar verir. Bu baxımdan tərbiyəçinin məsləhəti ilə hərəkət etməsi xidmətlərinin düzgün və bərəkətli olmasına yol açar.

İbrahim EROL
i_erol61@hotmail.com

ƏVVƏL YOLDAŞ, SONRA YOL

Yol, yoldan nə anladığına görə yolçunun önündə üfüq açır. Yolu anlamayan və ya rəhbərini yaxşı seçə bilməyən isə yolu deyil, öz ömrünü qısaldır. Səfərdə olan adam şagird, yol isə onun məktəbidir. İnsan bəzən öz seçdiyi, bəzən də başqalarının seçdiyi məktəbə getmək məcburiyyətində qalır. Nəticədə yaxşı, ya da pis hər ikisi də məktəbdir və rəhbərləri vardır. Çətin də olsa, asan da olsa, rəhbəri yaxşı olanın davam etdiyi yoldakı nailiyyəti də o nisbətdə yaxşı olacaq.

"Kun / (ol)" əmriylə ruhlar aləmindən səfərə çıxan, ana rəhmində ətə, sümüyə bürünüb həyat yolunda bir müddət gedən, qəbir qapısıyla bərzəx aləmi yolçuğuna davam edən və nəhayət məhkəmeyi-Kübra qərarıyla sirat körpüsündən keçərək əbədi həyatla sona çatacaq bu səfər insan oğlunun həyatla imtahanıdır... Həyata başlamaq yola düzəlməkdir. İnsan oğlunun yola haradan və necə başlayacağını müqəddəs iradə təyin etmiş, eyni iradə müəyyən bir yaşa və zamana qədər yolun məsuliyyətlərini ondan qaldırmışdır. Hətta həddi-büluğ çağına gəlmədən səfərinə son verilənlərə isə cənnət dayanacağı müjdələnmişdir. Yolu və məsuliyyətlərini idrak mərhələsinə və səviyyəsinə gələn yolçu ona verilən ağıl və düşünmə qabiliyyəti sayəsində artıq öz seçimini etməli və bu seçim səbəbiylə hesab verəcəyini də unutmamalıdır.

Hər yolçuya səfərində ancaq gücü və taqəti nisbətində məsuliyyət verilmiş, ye-

rinə yetirə bilməyəcəyi və gücünün çatmayacağı şeylər ona yüklənməmişdir. Məsuliyyətlər və vəzifələr yolçuya "rəhbər bir kitabla - Qurani-Kərimlə" bildirilmişdir. Bu müqəddəs rəhbər kitab səfərin bütün pillələrini, yol olaraq tövsiyə edilməyən digər yolları və dayanacaqlarını geniş və aydın şəkildə izah edir. Özünün bir vasitə olduğunu, son dayanacaqda insana ediləcək rəftarın yolda necə getdiyinə bağlı olduğunu bütün varlığıyla hayqırır. Üzərində Hz. İbrahimlərin də, Nəmrudların da getdiyini, istəyənə içərisindəki bəzəkli, keçici və təhlükəli dünya nemətlərini təqdim edəcəyini, istəyəni isə "dareyn səadətin"ə (dünya və axirət xoşbəxtliyinə) çatdıracağını söyləyir.

İnsan oğlu hansı yolla gedəcəyinə özü qərar verməlidir. Çünki insan getdiyi yola oxşayar. Salehlərin getdiyi yollar üzərində gedən yolçusunu Salehlərə bənzədər. Daha doğrusu, Salehlərin seçdiyi yol, yolların ən sağlamıdır. Ulularımız "əvvəl yoldaş, sonra yol" deyərkən, yola çıxmadan əvvəl və ya yolda möhkəm bir dostun, yoldaşın və rəhbərin olmasının əhəmiyyətini ifadə edirlər. "İnsan dostunun dini üzrədir" hədisi-şərifində keçən din sözünü yol olaraq şərh etdiyimizdə, insanın dostluq etdiyi və ya içərisində yaşadığı qrup hansı yoldadırsa, o da eyni yoldadır mənası ortaya çıxır. Bu səbəblə yolçunun diqqət yetirib qəlbi aram tapana qədər davamlı öz-özünə verməli olduğu bir neçə əhəmiyyətli sual mövcuddur: 1. Getdiyim yol düzgündür? 2. Getdiyim yolda rəhbərim kimdir?

Yolların xəzinələri və sirləri vardır. Yolçu isə, ancaq istedadı qədər getdiyi yoldan istifadə edər. Bir su stəkanına bir ton su da tökülsə, o stəkanın həcmi müəyyəndir. Elə buna görə də yolçudan istənilən hesab onun qabiliyyətinə və istedadına görə çətin və ya asan olacaq. Amma daha əhəmiyyətlisi istedadın və qabiliyyətin səviyyəsi nə olursa olsun, tələb olunan şey yolun və istiqamətin düzgün təyin olunmasıdır. Getdiyimiz yol haqq və həqiqət yoludursa, o halda bu yola nə qədər əmək sərf etsək, yol da xəzinələrini bizə o qədər comərdcə açar. Hətta haqq və həqiqət yolçusu verdiyi əmək nəticəsində elə səviyyəyə çatar ki; eynilə Hz. Xızır kimi yola və yolun xəzinələrinə hökm edəcək səviyyəyə gələr.

Yolçunun getdiyi yola etina göstərməsi, şübhəsiz ki, yolun sonuyla əlaqəli bir hadisədir. Çünki hər yol insanı getmək istədiyi yerə aparmaya bilər. Səfərinin sonunda bir hesab gününün var olduğunu bilən yolçu əlbəttə, yolun qiymətini və yolda keçirdiyi zamanın dəyərini bilməyə çalışacaq. Bu səbəblə, insanın yol rəhbərini yaxşı seçmə zərurəti var. Çünki yolu ən gözəl şəkildə bitirmə arzusunda olan insan oğlu yolun bitmədiyini, əksinə özünün bitdiyini fərq etdikdə çox gec olacaq.

Məşhur filosof Heraklitə görə eyni dərədə iki dəfə yuyunmaq mümkün deyil. Bu qaydaya görə yolun zamanla ekvivalent bir mənada olduğunu desək yanılmarıq. Həm yolu, həm də zamanı istənilən səviyyədə istifadə etməyin nə qədər vacib olduğunu yolçuya izah etmək üçün yolların mənəvi rəhbərləri "ibnul-vaxt" ifadəsini istifadə etmişlər. Yəni yolçunun yolda keçirdiyi vaxtı dərk edərək bir daha o vaxtın geri gəlməyəcəyi şüurunda olması, bir sözlə hər anın vaxtını bilməsidir.

İnsan oğlu hansı yolla gedəcəyinə özü qərar verməlidir. Çünki insan getdiyi yola oxşayar. Salehlərin getdiyi yollar üzərində gedən yolçusunu Salehlərə bənzədər. Daha doğrusu, Salehlərin seçdiyi yol, yolların ən sağlamıdır. Ulularımız "əvvəl rəfiq, sonra tariq" deyərkən, yola çıxmadan əvvəl və ya yolda möhkəm bir dostun, yoldaşın və rəhbərin olmasının əhəmiyyətini ifadə edirlər.

Elşən RZAYEV
elshanrza@hotmail.com

AZARKEŞLƏR

İslam qeyd-şərtsiz təslim olmaqdır... Nəyə təslim olmaq?.. Əlbəttə, həqiqətə. Həqiqət isə, yalnız həqiqətə könül verəni təslim alar. Beləliklə də özünü ona təslim edər. Çünki o, özünü yalnız "mömin"ə əmanət edir. Buna görə də mömin "etimad edilən və əmin" kimsədir. Və yenə elə buna görə də Allah sadəcə "Mütləq Həqiqət" mənasını ifadə edən "əl-Haqq" deyil, eyni zamanda "etimad və iman qaynağı" olan "əl-Mömin"dir. Mütləq Həqiqət olan Allaha etimad etmədən Ona təslim olmaq qeyri-mümkündür. Həmçinin Ona təslim olmadan etimad etmək də...

Bir tərəfdə həqiqət deyə dərdi olan, digər tərəfdə həqiqətlə dərdi olanlar var. Müsəlman olmaq həqiqət adlı bir dərdi olmaqdır. Həqiqətlə dərdi olanların müsəlmanlıq iddiası Quranın isbat edilməmiş iman sahibləri üçün işlətdiyi "əllə-zinə əmənu" qrupuna aid olan müsəlmanlıqdır, Allahın qəbul etdiyi iman sahibləri üçün işlətdiyi "muminun" qrupuna aid olan bir müsəlmanlıq deyil.

Bəli, iman cövhəri möminin ən qiymətli sərmayəsidir. İman bütün ibadətlərdən üstündür. İman isə kitabi biliklər və nəzəriyyə ilə deyil, duyulub hiss edilən, qəlbə nəqş edilən və nəticədə davranışlara əks etdirilən həqiqətlər ilə yaşanır.

İman ilahi bir lütf, imtahan imanın möhkəmliyini ölçən bir meyar, mömindən istənilən isə imanı yad ünsürlərdən qorumaqdır. Yəni Allahın lütf etdiyi iman nemətinin ucalığını və dəyərini dərk etməkdir.

Ancaq təəssüf ki, bəzən iman nemətinin ucalığını və dəyərini dərk edə bilmirik. Bizim imanımız ən yaxşı halda müsəlmana azarkeşlik etməkdən o tərəfə

keçmir. "Müsəlman azarkeşi" ifadəsi sizə qəribə gəldi, elə deyilmi? Axı indiyə qədər biz futbol azarkeşi, voleybol azarkeşi, filan-filan azarkeşi eşitmisiniz. Ancaq müsəlman azarkeşi ifadəsini əminəm ki, ilk dəfədir eşidirsiniz. Olsun. Hər şeyin bir ilki vardır, deyirlər. Bu ifadə hardan ağlıma gəldi, istəyirəm ona bir az aydınnlıq gətirim:

Biz əlhamdulillah, müsəlmanıq. Soruşulanda hər zaman belə deyirik. Bu belə də olmalıdır. Çünki İslam bir fitrət dinidir. Və yaradılışındakı insanlıq xüsusiyyətini itirməyən hər bir kəsin dini olmalıdır. Ancaq iş İslamdan irəli gələn həyat tərzinə gəldikdə məsələ bir az qəlizləşir. Axı əslində "Müsəlman əlindən və dilindən hər kəsin əmin olduğu bir kimsədir", "Müsəlman əmanətə xəyanət etməz", "Müsəlman verdiyi sözün üstündə durar", "Müsəlman əsla yalan danışmaz" və s. kimi xüsusiyyətləri özündə cəm etməlidir hər bir müsəlman. Diqqət edin, özündə daşımalıdır yox, özündə cəm etməlidir. Yəni bunlardan biri əskik olarsa, deməli imanda zəiflik, müsəlman olmaqda problem var.

Nədənsə biz həmişə müsəlman şəxsiyyətindən misal vermək lazım gələndə özümüzü deyil, 1400 il əvvəl yaşayan insanları nümunə olaraq göstəririk. Və ya ən yaxşı halda müasir dövrümüzdən misal vermək istəsək, ən az yüzlərlə kilometr uzaqlıqdakı bir insanı göstəririk. Axı biz əgər müsəlmanıqsa, o gözəl xüsusiyyətlər bizdə də olmalı deyilmi? Deməli, biz müsəlmana xas xüsusiyyətləri özümüzdə deyil, başqasında görüb və o xüsusiyyətlərə müsəlmanlıq adına seviniriksə, o halda bizimki azarkeşlikdən başqa nədir ki?

Nədənsə biz, yaxşı ilə pisi bir yerdə yaşamaq istəyirik. Haqqı batilə qarışdırdıqda haqq olmaz qardaşım! Yaxşını pisə qarışdırdıqda pis heç vaxt yaxşı olmaz. Halalı harama qarışdırdıqda haram halal olmaz, ancaq halal haram olar. Eynilə halal suyu şəraba qarışdırmaq, halal şəhvəti haram zinaya qarışdırmaq, halal pulu haram faizə qarışdırmaq kimi...

Unutmayın, Haqqa sarılmanın şərti haqqı haqq bilmək, batildən uzaq olmağın şərti isə batili batil bilməkdir. Düzdür musiqidə popuri, sənətkarlıqda şəbəkə, içkidə kokteyl yaxşı ola bilər. Lakin dünyanın ən pis qarışığı haqq-batil qarışığıdır. Bu qarışıq imanı zəhərləyər.

Uca Allah Qurani-Kərimdə Ənkəbut surəsinin 2-ci ayəsində **"İnsanlar yalnız: "İman gətirdik!" – demələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?"** buyurur.

İnsanların öz gözündə tiri görməyib başqalarının gözündə tük axtardığı; fitnə-fəsadı, qeybəti həyat düsturu etdiyi; sadəcə özlərini düşündüyü; haram-halal demədən qazanc həvəsində olduğu; pul gəlsin, əvəzində nə aparırsa aparsın dediyi; bildikləri ilə əməl etməyib göstəriş üçün artistlik etdiyi; ədalətə şahidlik etmədiyi bir dövrdə yaşamaqdan həzz almaq və həyata sarılmaq nə məna ifadə edir görəsən?

Nədənsə biz həmişə müsəlman şəxsiyyətindən misal vermək lazım gələndə özümüzü deyil, 1400 il əvvəl yaşayan insanları nümunə olaraq göstəririk. Və ya ən yaxşı halda müasir dövrümüzdən misal vermək istəsək, ən az yüzlərlə kilometr uzaqlıqdakı bir insanı göstəririk. Axı biz əgər müsəlmanıqsa, o gözəl xüsusiyyətlər bizdə də olmalı deyilmi? Deməli, biz müsəlmanaxas xüsusiyyətləri özümüzdə deyil, başqasında görüb və o xüsusiyyətlərə müsəlmanlıq adına seviniriksə, o halda bizimki azarkeşlikdən başqa nədir ki?

Saleh ŞİRİNOV
salehsirin@hotmail.com

TÖVBƏ

Şeytan insanı aldadar, günaha sövq edər. Çünki şeytan insanın düşmənidir. İnancı güclü insanlar belə şeytanın tovlamasıyla xəta edər. Allahın qoruduqları xaric, hər kəs günah işləyə bilər.

İşlənən hər günah qəlbdə qara bir nöqtə şəklində iz salar. Əgər bəndə işlədiyi günahı buraxaraq Allaha yönələr və Ondan əfv diləyərsə, qəlbi yenə əvvəlki parlaqlığına qovuşar. Əgər belə etməyib günah işləməyə davam edərsə, qəlbindəki qara nöqtələr çoxalar. **"Xeyr, onların etdiyi günahlar qəlblərini qaraltmışdır"** ayəsi bu qara nöqtələrə işarə edir.

Kiçik günahlardan çəkinmək

İnsanlar ümumiyyətlə kiçik günahlara əhəmiyyət verməz, onları işləməkdə bir qəbahət görməz. Bu anlayış günahların çoxalmasına yol açar.

Peyğəmbərimizin xidmətkarı Ənəs bin Malik Rəsulullah (s.ə.s)-in vəfatından sonrakı illərdə insanların laqeyd davrandıqlarını, Peyğəmbərimiz zamanında böyük günah sayılan davranışları adi və əhəmiyyətsiz gördüklərindən üzülərək bəhs edir.

Halbuki Rəsuli-Əkrəm əziz xanımı Hz. Aişəyə xalqın kiçik gördüyü günahlardan çəkinməyi tövsiyə etdi; kiçik günahları belə izləyib yazan vəzifəlilər olduğunu xatırlatdı.

Kiçik görülən günahların şeytanı çox sevindirdiyini xəbər verdi.

Vaxt varkən tövbə etməli

Bu səbəblə də Allah-Təala günahlara arxa çevirməyimizi istəyir.

Qəlbdən tövbə edərək və peşmanlıq duyaraq özünə yönəlməyizi arzu edir.

Bizi bağışlaması üçün Ona yalvarmağımızı gözləyir.

Ancaq o vaxt pisliklərimizi bağışlayacağını bildirir.

Çünki bəndələrinin tövbələrini qəbul edən, pislikləri bağışlayan və etdikləri hər şeyi bilən yalnız Odur. Həqiqət bu olduğuna görə tövbə etməkdə gecikməməli, ölüm gəlib çatmadan əvvəl Allaha yönəlməli və Ona təslim olmalıyıq.

Belə edilmədiyi təqdirdə gələcəkdə başa gələcək sıxıntılardan insanı qorumağa heç kimin gücünün çatmayacağı bilinməlidir.

Çox təəssüf ki, insanların çoxu bu mövzuda laqeyd davranır, ölüm anına qədər pislik işləməyə davam edir; ölüm gəlib çatdıqda "indi tövbə edirəm" deyərək bağışlanmasını istəyər. Amma Allah-Təala belə edənlərin tövbələrini qətiyyən qəbul etməz.

Peyğəmbər örnəyi

Əziz Peyğəmbərimiz (s.ə.s) bizə bu mövzuda da örnək oldu. Günahlarının bağışlandığı müjdələndiyi halda bəzən **gündə yetmiş dəfə,** bəzən **yüz dəfə** Allahdan əfv diləyərək tövbə etdi.

Hətta bəzən oturduğu bir yerdə yüz dəfə: *"Allahım! Məni bağışla və tövbəmi qəbul eylə! Şübhəsiz sən tövbələri qəbul edən mərhəmət sahibisən"* deyə yalvarardı.

İnsan işlədiyi pislikdən ötrü Allahdan

utanmalı, vicdan əzabı duymalı və peşman olmalıdır. Günaha peşmanlığın ən uyğun şəkli tövbə etməkdir.

Bəndə bir günah işlədiyi zaman "Rəbbim, məni bağışla!" deyə yalvarmalıdır.

Buna **istiğfar** deyilir.

Tövbə etmək etdiyi günahlardan ötrü peşmanlıq duymaqdır.

Tövbə edəni Allah sevər

Haqq-Təala qulun tövbə etməsindən çox məmnun olar. Peyğəmbərimizin bənzətməsiylə ucsuz-bucaqsız səhrada üstündəki azuqəsiylə birlikdə dəvəsini itirib ölümlə qarşı-qarşıya gələn, sonra da dəvəsini tapan adamdan daha çox sevinər.

Bir insanın tövbə etməsi Allah-Təalanı niyə bu qədər məmnun edər?

Onun bəndəsinə olan dərin mərhəməti səbəbilə.

Rəsulullah (s.ə.s)-in ifadəsilə, Allahın gündüz günah işləyənin tövbəsini qəbul etmək üçün bütün gecəni gözləməsi, gecə günah işləyənin tövbəsini qəbul etmək üçün də bütün bir gündüzü gözləməsi, bu sevgi və mərhəmət səbəbilədir.

Tövbə qapısı daima açıqdır

Tövbə edərək təmizlənməyin müəyyən bir vaxtı yoxdur.

Bir insan can verməyə başlamadığı müddətcə tövbə edərək günahlardan təmizlənə bilər.

Səmimiyyətlə edilən bir tövbə qul haqqı xaricindəki bütün günahları silib yox edər.

Qul haqqı isə sadəcə ödənmək və halallaşmaq surətilə bağışlana bilir.

Əziz Peyğəmbərimiz (s.ə.s)-in zamanında bir qadın zina etmişdi. Etdiyinə peşman oldu. İşlədiyi günahın ağırlığını ürəyində hiss etdi; dəfələrlə Rəsuli-Əkrəmin yanına gələrək cəzasını dünyada çəkmək, axirətə saxlamaq istəmədiyini israrla bildirdi. Bunun üzərinə cəzası verildi.

Səhabələrdən biri qadını xor gördü. Hz. Peyğəmbər onun bu davranışını doğru görmədi. O qadının ürəkdən tövbə etdiyini, hətta onun tövbəsi Mədinə xalqından yetmiş nəfərə paylanarsa hamısının bağışlanmasına yetəcəyini söylədi.

Tövbəni dəyərli qılan şey;

günah işləməkdən ötrü qəlbin peşmanlıq duyması,

günahkarın o pis davranışı tamamilə tərk etməsi

və onu bir daha etməyəcəyinə dair söz verməsidir.

Məsələnin qul haqqıyla əlaqəli tərəfi varsa, haqqına girdiyi şəxsdən halallıq almaqdır.

Allahın varlığını bilmək

Müsəlman böyük günahlardan uzaq olarda, onun arada bir işlədiyi kiçik xətaları Allah-Təala bağışlaya bilər; çünki O, bağışlamaq mövzusunda comərddir.

Xətasını bağışlayacaq bir Rəbbi olduğunu bilmək, Allaha yönələrək səmimiyyətlə əfv diləmək, günahları əritməyə kifayətdir.

Peyğəmbərimiz (s.ə.s)-in xəbər verdiyinə görə bir qul bilərək günah işlədikdən sonra:

"Ya Rəbb! Mən bir günah işlədim, qüsurumu bağışla!" deyə Rəbbinə yalvardığı təqdirdə Allah-Təala:

"Demək ki, qulum günahını əfv edəcək və ya onu cəzalandıracaq bir Rəbbi olduğunu bildi. Elə isə mən də qulumu bağışladım" buyurar.

O bəndə bir müddət günahsız yaşadıqdan sonra yenə günah işləyər və eyni şəkildə Rəbbinə yönələrək əfv diləyərsə, Allah-Təala onun Rəbbinə yönəlməsindən məmnun olar və bağışlayar.

Bu ilahi müjdə imanlı qəlblərə rəhmət əsintisi gətirər və günahkarların ümidsizlik batağına düşməsinə mane olar.

Bəs yaxşılıqlarım yetməzsə!

Uca Rəbbimiz yaxşılıqlara qat-qat artıqlamasıyla savab verəcəyini vəd etmişdir.

Bəzən bir yaxşılığa **on misli** mükafat verəcəyini söyləmiş, bəzən on mislindən **yeddi yüz mislinə** qədər, hətta **daha çox** savab verəcəyini ifadə etmişdir.

Bu rəhmət ölçüsü səmimi bir tövbənin dağlar qədər günahı belə əridib yox edə biləcəyini göstərməkdədir.

Arif HAŞİMZADƏ

REKLAM

Hər gün evdən şəhərə, işə və ya rayona gedərkən saysız-hesabsız əmtəə və ideya haqqında maraq formalaşdırmaq və ya bu marağı saxlamaq, əmtəənin satılmasına, ideya və yeniliklərin həyata keçirilməsinə kömək göstərmək məqsədi ilə yayılan informasiya - reklam afişaları, stend və işıq tabloları ilə qarşılaşırıq. Qarşımıza reklam lövhələrindən daha çox çıxan başqa bir şəkil, yazı yoxdur.

Hələ yarım saatdan bir televizor ekranlarında nümayiş etdirilən reklam çarxları...

İnsanlıq XXI əsrdəki kimi bu qədər sıx reklam mesajları ilə qarşılaşmamışdır.

Reklamları istəyirsən oxu, istəyirsən oxuma. Onlar bir yolla mütləq sənin gözünə, qulağına yol tapırlar. O qədər təkrar olunur ki, hətta insan iradəsiz olaraq reklam çarxlarında yer alan qısa mesajları əzbərləyir.

Reklam çarxlarında tərifənən mal olduğu kimi tanıdılsa, heç bir problem yoxdur. Hətta böyük şəhərlərdə yaşayan alıcıya tələbatın asan təmin edilməsi üçün bir rahatlıqdır. Ancaq çox zaman reklam olunan malın görünüşü olduğundan daha cazibəli şəkildə nümayiş etdirilir ki, bu, alıcıya sərbəst və dəqiq qərar verməkdə çətinlik yaradır, başqa cür desək, onu əfsunlayır. Düşüncəsi sehrlənən alıcı isə nəyin ehtiyac, nəyin də əlavə olduğunu ayırd

edə bilmir. Nəticədə istehlakçı israfçılığı normal hal kimi qəbul etməyə başlayır.

Reklamlarda insanlara daha bir mal alaraq özlərini, ya da məişətlərini dəyişdirmək vəsvəsəli şəkildə tövsiyə edilir. Sanki alacağımız yeni maşın bir növ bizi daha da zənginləşdirəcək. Bunu təlqin edir reklam. Əslində o maşını ala bilmək üçün bir az daha yoxsullaşır və ya kiminsə üstünə borc almaq üçün qaçırıq; faizlə də olsa.

Reklam həmişə gələcəkdəki alıcıya səslənmək məcburiyyətindədir. Alıcıya, satmağa çalışdığı məhsulun və ya imkanın cazibədar obrazını göstərir. Beləcə bu obrazla alıcıda gələcəkdə əldə edə biləcəyi vəziyyəti əldə etmək üçün qısqanclıq oyandırır.

Belə də ifadə etmək olar: Reklam çarxı alıcıdan əslində onun özünə qarşı duyduğu, bəslədiyi sevgini oğurlayır. Sonra da bu sevgini ona, alacağı məhsulun qiymətinə yenidən satır.

Reklamın sərgilədiyi təsir çox zaman həqiqətə söykənmir. Reklam daxilimizdə olan təbii bir zövq aclığını sərmayə götürərək girişir işə. Zövq isə obyektin əslini təqdim edə bilməz.

Elə isə reklamları iki qismə bölə bilərik; *tanıdıcı reklamlar, zövqləri istismar edərək satdığı malın həqiqətini gizlədən reklamlar.*

"Hər şeyi ilə cazibədar görünmək" prinsipi reklamların insanların düşüncələrinə yön vermək üçün sıx-sıx işlətdiyi sehrli çubuqdur. Halbuki qədimdə cazibədarlıq əvəzinə incəlik, zəriflik və nəzakətə qiymət verilirdi.

Reklam insana tələbatdan çox yersiz istehlakı öyrədir. Qədimdə yoxsulluq tələbatla ödənilirdirsə, günümüzdə lüzumsuz şeylər ehtitac kimi təqdim olunur. Bu gün reklam inkişaf etmiş ölkələrdə xalqa arzuolunmaz şeyləri belə səhv ölçülərlə zorla qəbul etdirir.

Reklamda inkar olunmaz təsir etmə gücü vardır. Reklam eyni zamanda real bir siyasi faktdır. Ancaq reklamın arenası geniş olsa da təqdim etdikləri fərqli şəkillərdə təkrarlardır.

Reklamlarda insanlara daha bir mal alaraq özlərini, ya da məişətlərini dəyişdirmək vəsvəsəli şəkildə tövsiyə edilir. Sanki alacağımız yeni maşın bir növ bizi daha da zənginləşdirəcək. Bunu təlqin edir reklam. Əslində o maşını ala bilmək üçün bir az daha yoxsullaşır və ya kiminsə üstünə borc almaq üçün qaçırıq; faizlə də olsa.

Reklamın başqa bir gizli sehrli çubuğu isə insana sadəcə fərdi xoşbəxtliyi arxasında qaçmağı aşılamaqdır. Halbuki günümüzdəki ictimai şərtlər fərdin özünü gücsüz və hüzursuz hiss etməsinə gətirib çıxarmışdır. Fərd içində yaşadığı vəziyyətlə olmasını arzuladığı vəziyyət arasındakı ziddiyyəti hər gün yenidən yaşayır. Əksəriyyət isə qısqanclıq hissinin pəncəsində bitməyən xülyalara qapılaraq yaşayar.

Reklamlardan təsirlənən insanlar ardıcıl olaraq nə isə satın almaq istəyirlər. Beləcə, ehtiyacdan çox, istək və arzularını təmin edən şeyləri seçərək alırlar. Bu vəziyyət ehtiyac olan və ya olmayan bir çox şeyin satın alınması vərdişini aşılayır. Hər keçən gün yeni və təsirli təqdimatlar satın alma tempini tətikləməkdə və artaraq davam etməsini təmin etməkdədir. Nəticədə bu psixologiya ilə insan uzanan bir istehlak cığırına girir. İstehlak edər və arxasınca da yenisinə gözünü dikər. Yeni çıxanla maraqlanar və onu da çox qısa bir müddətdə istehlak edər. Bu tip vərdişlərin insanlarda var olmasının və ya meydana gəlməsinin ana səbəblərindən biri məhz reklamdır.

Eldar KƏRİMOV
canyanar@yahoo.com

ÜRƏKLİ OL!

Əgər buna yaşamaq deyirsənsə, yanılırsan. Həyat belə yaşanılmır. Bolluqlar içərisində yoxluqları hiss edirsənsə, deməli bu yaşamaqdan çox sürünməyin təzahürüdür. Boynubükük bənövşə kimi ayaqlar altında əzilməyi özünə rəva görürsənsə, daima dikəlmədən yaşayacaqsan. Özünü başqalarının yanında kiçik görmək heç bir zaman yüksəlməyəcəyindən xəbər verir. Gəlib-gedən başından vurub əlindən alacaq və yoxluqlar içərisində məhv olacaqsan. Və bunun adını həyat qoyub özünə və cəmiyyətə fayda vermədən yaşayacaqsan.

Sən heç kimdən, heç bir sahədə arxada ola bilməzsən axı. İnsanlar arasında qərib bir varlıq kimi dolaşmaqdan əl çək artıq. Onların səndən heç bir artıq xüsuslarının olmadığının fərqinə var. Uca Yaradan tərəfindən böyük keyfiyyətlərə sahib bir şəkildə yaradılan insansan sən. Özünün qiymətini bil.

Bəli, öz dəyrini bilməyən insan! Günlərin bir günü "Mənimlə müsahibə etmək istəyirsən?" deyə soruşdu Həyat. "Vaxtın varmı?" -deyə soruşdum. Gülümsədi. "Mənim zamanım sonsuzduz" - dedi Həyat. "Nə suallar var ürəyində?" "İnsanlarla əlaqədar ən çox nəyə təəccüblənirsən?" -deyə soruşdum. Həyat cavab verdi: "Uşaqlıqdan sıxılıb böyümək üçün tələsirlər, sonra yenə uşaq olmağın həsrətini çəkirlər. Pul qazanmaq üçün sağlamlıqlarını itirirlər, sonra sağlamlıqlarını qazanmaq üçün pullarını itirirlər. Gələcəklə əlaqədar maraqlandıqları üçün indini unudurlar. Sonra da nə indini, nə gələcəyi yaşaya bilirlər. Təcrübə yaxşı bir müəllimdir deyirlər, amma təcrübənin əvəzini ödəmək istəmirlər. Həyatlarını qazanmaq üçün təhsil alırlar, amma həyat ustası olmağı bilmirlər. Ona görə də, heç ölməyəcəkmiş kimi yaşayırlar, heç yaşamamış kimi ölürlər." Həyat əlimi tutdu. Bir müddət səssiz qaldıq. Dərin bir nəfəs aldım. Ona, insanların nələri öyrənmələrini istədiyini soruşdum. Həyat cavabladı. "Heç kimi səni sevməyə məcbur edə bilməyəcəyini, edə biləcəyin tək şeyin səni sevmələrinə

icazə verməyini istərdim. Bağışlamanın bağışlayaraq öyrənilə biləcəyini bilməyini istəyərdim. Başqalarıyla özlərini müqayisə edərək özlərini öyrənmələrini istəyərdim. İki insanın eyni şeyə baxıb fərqli şeyləri görə biləcəyini öyrənmələrini istəyərdim". "Zəngin insanın ən çox şeyə sahib olan deyil, ən az şeyə ehtiyac duyan insan olduğunu öyrənmələrini istərdim. Bir mehriban ürəyi dərindən yaralamağın bir anda olduğunu, amma yaxşılaşdırmağın çox uzun sürdüyünü öyrənmələrini istərdim. Səni sevən insanların duyğularını necə ifadə edə biləcəklərini bilmədikləri üçün səni sevmədiklərini sanmaq yerinə onların sevgisini hiss etməyi öyrənməni istəyərdim." Həyat dərin bir nəfəs verdi. Həyatın nəfəsi sözlərə çevrildi. "Söylədiklərimi ürəyinə qeyd et" dedi. Söylədiyi cümləni ürəyimə qeyd etdim. "Başqalarını bağışlamaq yetərli deyil, özünü də bağışlamağı öyrən." Ürəyim quş kimi yüngülləşmişdi. "Son bir sual da verirəm" -dedim. "Məndən nə istəyirsən?" Bütün otağı ağ bir işıq bürüdü və Həyat cavabladı. "Sənin özün olmağını istəyirəm, yoxsa başqası olardın. Sənə bu gün ehtiyacım olduğunu bil, yoxsa bu gün mənimlə olmazdın. Öz bənzərsizliyini və təkrarolunmazlığını bil. Belə fikirləş: Mən özümü təkrar etməyəcək qədər yaradıcı və zənginəm. Və həqiqətən tək qiymətli olanam. Dəyərini bil. "

Nəhayət filosof Fredrix Nişenin sözləriylə desək: Gedənə qal deməyəcəksən. Gedənə qal demək - yazıqlara, dönməyənə dön demək- acizlərə, layiq olana get demək güclülərə yaraşar. Heç kimə layiq olmadığından artıq dəyər vermə, yoxsa dəyərsiz olan sən olarsan.

Düşün. Kim incidə bilər səni, səndən başqa? Kim doldura bilər içindəki boşluğu, sən istəməsən? Kim xoşbəxt edə bilər səni, əgər sən hazır deyilsənsə? Kim sevər səni, sən özün-özünü sevməsən? Hər şey səndə başlayıb, səndə qurtarır... Yetər ki, ürəkli ol! Tükənmə, tükətmə, tükətdirmə içindəki yaşamaq sevgisini...

Ya çarə sənsən, Ya da çarəsizsən...

Dənizləri sevirsənsə, dalğaları da sevəcəksən!

Sevilmək istəyirsənsə, əvvəlcə sevməyi biləcəksən!

Uçmağı bilirsənsə, yerə düşməyi də biləcəksən!

Qorxaraq yaşayırsansa, həyatı, yalnız seyr edəcəksən!

Düşün. Kim incidə bilər səni, səndən başqa? Kim doldura bilər içindəki boşluğu, sən istəməsən? Kim xoşbəxt edə bilər səni, əgər sən hazır deyilsənsə? Kim sevər səni, sən özün-özünü sevməsən? Hər şey səndə başlayıb, səndə qurtarır... Yetər ki, ürəkli ol! Tükənmə, tükətmə, tükətdirmə içindəki yaşamaq sevgisini...

Hasan Enes ÜNLÜ
hasanenesunlu@hotmail.com

YETKİN DUYĞULAR

Ağlayaraq gözlərimizi açdığımız bu həyatda əsl çətinlik gənclik illərində başlayar. Əslində bu göz yaşları ən çılğın zamanlarımızda, yəni yetkinlik illərində başımıza gələcək olanları əvvəldən hiss etdiyimiz üçün o zamana həsr olunmuş, yalnız vaxtından əvvəl axan göz yaşlarıdır. Bir əlimizdə yarım çörək arası kartof qızartması, digər əlimizdə meyvə şirəsi, əynimizdə qısa şort, naxışlı idman köynəyi, ayağımızda ən gözəl idman ayaqqabıları və o dövrün vazkeçilməz futbol topu..

Nə tez bunları edəcək yaşa gəldilər deyə düşünən ata-analarımızın baxışları altında yavaş-yavaş iztirablı günləri gözləyirik əslində. Bu çətin günlərin əlaməti əslində biz daha bu zövqləri yaşayarkən həyatımızda gün üzünə çıxmağa başlayır. Hələ orta məktəb illərində yoldaşlarımızla ailəmiz arasında bir ziddiyyət içinə girərik. Yuxarı siniflərdə bu ziddiyyət daha da diqqətə çarpan hala gələr. Hələ ailəmizlə aramızda problemlər varsa içindən çıxılmaz bir hal meydana gələr bizim üçün. Yoldaş ən üstündür, anadır, atadır, bacıdır, dostdur bizim üçün.

Onunla olmaq üçün yalanlar danışılar, vaxt keçirmək üçün hər yola əl atılar. Ailəmiz üçün etməyəcəyimiz bir çox fədakarlığı onun üçün sevə-sevə edərik. Sonunda bizə zərəri olacağını bilə-bilə. Bu vəziyyət bizim üçün çox əyləncəli, zövqlü, sevincli olsa da ailəmiz üçün elə deyil. Onlardan uzaqlaşdığımızı çox rahat bir şəkildə görərlər. Bizə vaxt ayırarlar, bizimlə uşaq olarlar, gəzmək, əylənmək üçün cəhdlər edərlər. Yeganə məqsədləri bizi təkrar qazana bilməkdir. Biz isə bu məqsədlə edilən hər hərəkəti axmaqlıq olaraq xarakterizə edər və bu vəziyyətdən sıxıldığımız üçün onlara qarşı sifətimiz turşudarıq, qaş-qabağımızı tökərik.

Zaman keçər, məktəb həyatımız bitər. Artıq az da olsa ağlımız başımıza gəlmişdir. Lakin beynimiz və düşüncələrimiz ətrafındakı tüstü, sis hələ dağılmamışdır. Universitet illəri də bu və buna bənzər hadisələrlə gəlib keçər. Ağlımız artıq yerinə gələr. Düşüncələrimiz tamamilə

Küçədə ən qiymətli varlığımızı oyun oynarkən seyr edib keçmişə qayıdıb təbəssüm edərik, bu yaşa nə tez gəldi deyə çaşarıq və onun ən gözəl illərində öz uşaqlığımızı xatırlayar, onun da vaxtilə biz tərəfdən buraxılan səhvləri edəcəyini düşünərək narahat olarıq.

dəyişmək üzrədir. Vaxtı ilə üzünü turşutduğumuz, bəyənə bilmədiyimiz ata-analarımızın əslində həyatlarımızda ən mühüm yerə sahib olduqlarını anlamağa başlayarıq. Onlar da bunun fərqindədirlər və ona görə də xoşbəxtdirlər. Yaxşı, biz bu vəziyyətin tam tərsini etsəydik o illərdə necə olardı görəsən. Ən hərəkətli, çılğın, enerjili illərimizdə ailəmizin yanında olsaydıq, onlarla şüurlu formada vaxt keçirib, danışıb, dərdləşib, çətinliklərimizi onlarla paylaşsaydıq, onların yanımızda olmasına icazə versəydik indiki biz qat-qat güclü, müvəffəqiyyətli və həyatı daha yaxşı analiz etmiş bir şəkildə yeni həyatımıza mərhaba deyərdik.

Yaxşı, o illərdə ailəmizlə vaxt keçirib irəliləyən illərdə yoldaşlarımıza yaxınlaşsaq onlar ailəmizin göstərdiyi xoş üzün nə qədərini bizə göstərərdilər? Bu problemin cavabı nə qədər də nisbidir.

Öz etdiklərimizi düşünüb gülümsəyərik. Amma vaxtı ilə etdiyimiz və bunları edərkən özümüzü haqlı gördüyümüz, bunların xaricində başqa bir ehtimal belə vermədiyimiz o illəri öz uşağımızın yaşamasından nigaran olaraq. Küçədə ən qiymətli varlığımızı oyun oynarkən seyr edib keçmişə qayıdıb təbəssüm edərik, bu yaşa nə tez gəldi deyə çaşarıq və onun ən gözəl illərində öz uşaqlığımızı xatırlayar, onun da vaxtilə biz tərəfdən buraxılan səhvləri edəcəyini düşünərək narahat olarıq. Bunları bizə yaşatmasını istəmərik. Lakin biz yaşatdığımız üçün peşman olmaqla-olmamaq arasındakı xətti də tam olaraq çəkə bilmərik. Hər nə olursa olsun, bir xatirə olaraq həyatımızda böyük bir iz qoymuşdur və sevə-sevə izah edərik bu gənclik illərimizi.

Arxamıza dönüb baxdığımız zaman heç bitməsin dediyimiz gənclik illərimiz bir samanın tutuşub yanması kimi ani bir parlama ilə gəlib keçmişdir. Yaşanılan hər şeyə, edilən hər səhvə baxmayaraq bu illəri yaşamaq bir çox şeyə dəyər əslində.

SORUŞ

Od nə çəkdi,
küldən soruş!
Baş nə çəkdi,
dildən soruş!
İşə susuz barmaqların
kədərini insan bilir.
Nəğmələrin həsrətini
bir qırılmış teldən soruş!
Ömrün çətin yollarında
daşa ləpir salsa ayaq,
gün nə çəkdi,
ildən soruş!
Zülmətliyin möhnətini
kor söyləsin!
Bəm xalların fəryadını
zildən soruş!
Mən kölgəsiz bağ görmədim,
El dərdi tək dağ görmədim,
Gözlərimi yumub açdım
neçə dostu sağ görmədim.
Nələr çəkdi çaylaq daşı
seldən soruş!
Yollar uzun, mənzil uzaq.
Sərt daşlara dözmür ayaq.
Dözsün gərək.
Dözsün gərək.
Kim zirvəyə qalxar, deyin,
Yollar boyu hər pilləni
birgünləri, yüzilləri
qəlbimizlə,
beynimizlə
ömrümüzlə
doldurmasaq.
Mən yolçuyam
Od nə çəkdi,
küldən soruş!
hansı şerim,
hansı sözüm
yaşayacaq məndən sonra?
Mən bilmirəm,
eldən soruş!

Rəsul RZA

Mübariz ƏLİOĞLU

ÖZÜNÜZÜ CƏHƏNNƏM ATƏŞİNDƏN QORUYUN

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər)**, xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli** (heç kəsə zərrəcə rəhm etməyən) **və çox sərt təbiətli mələklərdir** (zəbanilərdir)**."** (ət-Təhrim, 17)

"De: "Əsl ziyan çəkənlər (axirəti əldən verənlər) **qiyamət günü özlərini və ailələrini** (özlərinə bağlı olanları) **ziyana uğradanlardır. Bax, açıq-aşkar ziyan budur!" Onların üstlərində və altlarında oddan sipər** (kölgəlik) **vardır. Allah Öz bəndələrini bununla** (bu əzabla) **qorxudur. Ey bəndələrim! Məndən qorxun!"** (əz-Zumər, 15-16)

Aləmlərin rəbbi olan uca Allahın axırzaman adlanan zaman kəsiyində bizə lütf və ikram etdiyi dünya və nemətləri imtahan edilmə mahiyyətini itirərək insanlığı zərərindən qurtulması mümkünsüz olan rəzillik zindanına sürükləməkdədir. Qullarına daima mərhəmət müstəvisindən yetişən Uca Allah Quranda dünyəvi məsuliyyət dairəsinin hüdudlarını açıq şəkildə bəyan edərək onları ehtiyatlı davranmağa dəvət edir:

"Hər bir kəs (hər bir canlı) **ölümü dadacaqdır.** (Dözüb-dözməyəcəyinizi, şükür edəcəyinizi, yaxud nankor olacağınızı) **yoxlamaq məqsədilə Biz sizi şər və xeyirlə** (xəstəlik, yoxsulluq, ehtiyac və sağlamlıq, var-dövlət və cah-cəlalla) **imtahana çəkərik. Və siz** (qiyamət günü əməllərinizin əvəzini almaq üçün) **ancaq Bizim hüzurumuza qaytarılacaqsınız!"** (əl-Ənbiya, 35)

Təbiidir ki, insan övladını əbədi axirət həyatında gözləyən məkanlardan biri cənnət, digəri isə cəhənnəmdir. Cəhənnəmin saysız-hesabsız ilahi nemətlərə qarşı nankor və yaramaz bir münasibətin acı mükafatı olaraq əsl insanlıq faciəsinin məskəni olacağı şübhə doğurmayan həqiqətdir. Bizi haqqa və əbədi xeyrə dəvət edən Allah Rəsulunun (s.ə.s) cəhənnəmdən qorunma təlimatı, məsələnin ciddiliyinin şüurlarda yaranması və dərinləşməsi baxımından əhəmiyyəti ilə seçilir. İmam Müslimin Səhihində Əbu Hüreyrə belə buyurur: **"Və ən yaxın qohumlarını qorxut!"** (əş-Şüəra, 214) ayəsi nazil olduqda Rəsulullah bütün qüreyşliləri bir araya dəvət etdi: Bütün Qüreyş toplandıqda Rəsulullah (s.ə.s) belə buyurdu: "Ey Kab oğulları! Ey Lüey oğulları! Özünüzü cəhənnəm atəşindən qoruyun! Ey Mürrə bin Kab oğulları! Özünüzü cəhənnəm atəşindən qoruyun! Ey Abduşşəms oğulları! Özünüzü cəhənnəm atəşindən qoruyun! Ey Abdulmənaf oğulları! Özünüzü cəhənnəm atəşindən qoruyun! Ey Haşim oğulları! Özünüzü cəhənnəm atəşindən qoruyun! Ey Ab-

dulmuttalib oğulları! Özünüzü cəhənnəm atəşindən qoruyun! Ey Məhəmməd qızı Fatimə! Özünü atəşdən qoru! Çünki mən, Allahın yanında sizin üçün heç bir şeyə sahib deyiləm."

Cəhənnəm rəzalətini bir-bir, qəbilə-qəbilə, xalq-xalq və bütün məsul olduğu insanlara, ümmətinə duyuran Allah Rəsulunun (s.ə.s) təbliği qəlbləri təsirləndirmiş və şanlı səhabəsindən başlayaraq günümüzə qədər gələn bütün mömin qulların həyatında öz əksini tapmışdır. Uca Allah Qurani-Kərimdə: **"Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər. Onlar gecəni Rəbbi üçün səcdə və qiyam (namaz) içində keçirərlər. Və belə deyərlər: "Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən sovuşdur. Şübhəsiz ki, onun əzabı həmişəlikdir!"** (əl-Furqan, 63-65) deyə buyurduğu məqamlara fövqəladə həssalıq göstərənlərin cəhənnəm qayğısı Adəm övladını təsirləndirəcək səviyyədədir: Əbu Nuaymın rəvayətinə görə Həzrət Ömər (r.a) belə demişdir: əgər göy üzündən bir səsin belə dediyini eşitsəm ki; Ey insanlar! Hamınız cənnətə girəcəksiniz, sadəcə bir nəfər girməyəcəkdir, onda həmin insanın özüm olmasından qorxaram. Rəvayətə görə Abdullah bin Məsud, Talha və Zeyd (r.anhum) həzrətləri dəmirçi körüyündə çalışanlara uğradıqda atəşi müşahidə edərkən ya bayılaraq yerə yıxılar, ya da ağlamaqdan özlərini saxlaya bilməzdilər. Qeyd etmək istərdim ki, dövrümüzdə yaşanmış və cəhənnəm atəşinin yer üzərində səhnələşdirilmiş ən dəhşətli nümunələri, insan təfəkkürünü ilahi əzab məkanını lazımi ölçüdə qiymətləndirməyə və ondan qorunmağa səsləyən misilsiz bir yardımçıdır:

1943-cü ilin iyul-avqust aylarında İngilis-Amerikan təyyarələri Hamburq şəhəri üzərində "Qomorra" adlı hava əməliyyatını həyata keçirmişlər. Şiddətli bombalanma nəticəsində şəhərdəki yanğın ocaqları bir mərkəzdə birləşərək görünməmiş atəş burulğanı yaratmışdır ki, təkcə bir gecədə 40000 nəfər insan mərkəzində istiliyi 800 dərəcəyə çatan bu burulğanda həlak olmuşdur. 1945-ci ildə Drezdenə edilən hava hücumu nəticəsində mərkəzində temperaturu 1500 dərəcəyə çatan atəş burulğanı 25000 nəfərin həyatına son qoymuşdur. O vaxtkı arxiv şəkillərində atəşin qızmar dilləri ilə şəhəri nəhəng bir süpürgə kimi yaladığı aydın şəkildə görünür. Qeyd edək ki, ətrafında olan heç bir canlıya bir an olsun belə aman verməyən atəş burulğanının sürəti Hamburqda saatda 240 km olmuşdur. 10 mart 1945-ci ildə Amerika hava qüvvələri 334 ədəd B-29 bombardmançı təyyarə ilə Tokio şəhərini bombalamaqla tarixin ən dəhşətli səhnələrini bu şəhərin əhalisinə yaşatmışdılar. Əmələ gələn atəş burulğanı 80000 nəfərdən çox insanı həlak etmişdir.

Cəhənnəm atəşi isə yerdəki atəş burulğanından daha qüvvətli və daha təsirlidir. Bu haqda Rəsulullah (s.ə.s) belə buyurur:

"Yandırdığınız atəş cəhənnəm atəşinin yetmiş parçasından bir parçadır." Yanındakılar: "Vallahi, bu atəş də (günahkarları cəzalandırmağa) yetərlidir, ey Allahın Rəsulu." -dedilər. Peyğəmbərimiz (s.ə.s) belə cavab verdi: "Cəhənnəm atəşi o birindən altmış doqquz parça üstündür. Hər bir parçanın istiliyi bunun (dünyadakı atəş) qədərdir." (Müslim, Cənnət 30, s. 2184)

Əzabı həmişəlik olan cəhənnəm dünyəvi meyarlarla təsvir edilməsi olduqca çətin və təfəkkürlərə sığmayacaq ölçüdə mövcud olan acı bir həqiqətdir. Ondan qurtuluş çarəmiz həyatın hər bir anını axirətyönlü məqsədlərə istiqamətləndirərək bizi cəhənnəm atəşindən təkidlə qorumağa çağıran Rəsulullahın mübarək duasına bütün varlığımızla sarılmaqdadır:

"Ey Rəbbimiz! Bizə dünyada bir gözəllik və axirətdə də bir gözəllik ver və bizi atəşin əzabından qoru!"

Amin!..

İrfan Söhbətləri

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

HƏCCİ-MƏBRUR VƏ ÜMRƏ

Həzrət Adəm və Həvva ilə başlayan ilk insanlıq ailəsi dini səadət iqlimində yaşamaq məqsədilə bu gün Məkkədəki Kəbənin yerini ilk ibadətxana olaraq seçmişdilər. Bəşər oğlu dəyişən həyata və icitmai səbəblərə bağlı müxtəlif yerlərə yayılmış, uzun əsrlər keçmiş, nəsillər dəyişmiş, bəzən haqq dindən yolunu azanlar olmuş və bir müddət sonra bu müqəddəs məbəd itmişdir. Həzrət İbrahim (ə.s) Allahın əmri ilə onu təkrar tikmiş və onun duası həmin ərazinin bərəkətlənməsinə səbəb olmuşdu. Bu barədə ayədə belə buyurulur:

"(Ya Rəsulum!) Xatırla ki, bir zaman İbrahim belə demişdi: "Ey Rəbbim! Bu diyarı (Məkkəni) əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq elə! Ey Rəbbim! Onlar (bütlər), həqiqətən, çox insanı (haqq yoldan) azdırıblar. İndi kim arxamca gəlsə, o, şübhəsiz ki, məndəndir. Kim mənə qarşı çıxsa, (bilsin ki, tövbə edəcəyi təqdirdə) Sən (günahları) bağışlayansan, (bəndələrinə) rəhm edənsən! Ey Rəbbimiz! Mən əhli-əyalımdan bəzisini (İsmaili və anası Həcəri) Sənin Beytülhəramının (Kəbənin) yaxınlığında, əkin bitməz bir vadidə (dərədə) sakin etdim. Ey Rəbbimiz! Onlar (vaxtlı-vaxtında, lazımınca) namaz qılsınlar deyə belə etdim. Elə et ki, insanların bir qisminin qəlbləri onlara (Kəbənin ziyarətinə, əhli-əyalıma mərhəmət göstərməyə) meyl etsin. Onlara (bu yerin ağaclarının) meyvələrindən ruzi ver ki, (nemətinə) şükür edə bilsinlər!" (İbrahim, 35-37)

Nəhayət, dünya gününün əsr vaxtına oxşayan əsri-səadət gəlmiş və Məhəmməd Peyğəmbər ﷺ ilə dini həyat ilk başladığı yerdə kamillik zirvəsinə ucalmışdır. Həzrət Peyğəmbər ﷺ Məkkə və Mədinədə bir əsri-səadət yaşamış, yaşatmış, beləliklə o şəhərlər qiyamətə qədər İslamın və müsəlmanların nəbzinin vurduğu və mütəmadi ziyarət etdikləri mübarək bir məkan halına gəlmişdir:

Allah-Təala buyurur:

"Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!" (Ali-İmran, 97)

Səmimi və təvazökarlıqla həcc edənlər özlərini həmişə Allah-Təlanın hüzurunda hiss edirlər. İlahi nəzarət və ehsan duyğuları qəlblərində yer tutur, ədəblərini mühafizə etdikləri nisbətdə isə təfəkkür və həssas qabiliyyətləri çoxalır.

Allahın bəndələri üzərindəki haqqı olan həcc ibadətinin layiqincə yerinə yetirilməsi onu gecikdirmədən, dərhal, böyük bir istəklə həyata keçirməyə bağlıdır. Çünki Həzrət Peyğəmbər ﷺ belə buyurmuşdur:

"Həcc etmək istəyən tələssin". (Əbu Davud, Mənasik, 5/1732)

Belə ki, o mübarək torpaqlarda dilə gətirilən təlbiyə, yəni "Ləbbeyk" (Allahım, əmrinə gəldim) ifadələri də bunu bir daha sübut edir.

Unudulmamalıdır ki, həyat neməti bəşəriyyətə bir dəfə bəxş edilmişdir. Təbii ki, ömür sona çatdıqdan sonra peşmançılığın heç bir faydası olmaz. O halda əlimizdə imkan varkən Rəbbimizin boynumuzdakı bir haqqı olan həcc ibadətinə laqeyd yanaşmamalı, imkan olan kimi bu böyük qulluq borcunu yerinə yetirməliyik.

İmkanı olan hər bir möminin ömründə bir dəfə həcc ziyarətini yerinə yetirməsi fərzdir. Dəfələrlə həccə getmək isə müstəhəbdir və savabı çox böyükdür. Həcc həm mal, həm də bədəni bir ibadət olması baxımından da çox fəzilətli bir ibadətdir. İlk növbədə həcdə Allah-Təalanın rizası var və eyni zamanda bu vaxt dünyanın dörd bir tərəfindən gələn müsəlmanlar arasında sevgi, məhəbbət və səmimiyyət ortaya çıxır. Dillər, rənglər, adət və ənənələr müxtəlif olmasına baxmayaraq, qəlbdən gələn istəklər bu fərqlilikləri aşır və müsəlmanları eyni anda döyünən bir ürək halına gətirir. Bununla da könül birgəliyinin hüzur və sevinci içində gözəl bir din qardaşlığı yaşanır. Səmimi və təvazökarlıqla həcc edənlər özlərini həmişə Allah-Təlanın hüzurunda hiss edirlər. İlahi nəzarət və ehsan duyğuları qəlblərində yer tutur, ədəblərini mühafizə edikləri nisbətdə isə təfəkkür və həssas qabiliyyətləri çoxalır. Allah-Təala həcc edənlərin qəlblərinə genişlik, könüllərinə zənginlik verər. Beləliklə də, onlarda iman keyfiyyətləri inkişaf edər, maddi və mənəvi imkanlar ilahi ləzzətlər uğruna daha çox səfərbər edilməyə başlayar.

İmam Əzəm həzrətləri saysız tələbəsi və çox işi olmasına baxmayaraq, vaxtının demək olar ki 1/3-ni həcc səfərinə həsr etmişdi. O dövrdəki şərtlər altında dəvə ilə Bağdaddan Məkkeyi-Mükərrəmə və Mədineyi-Münəvvərəni ziyarət etməyin necə çətin bir səfər olduğunu təsəvvür etmək lazımdır. Amma Haqq dostları heç bir yerdə olmayan Hərameynin feyzli ab-havasından istifadə etməyi, hər fürsətdə həccə getməyi və Rəsulullahı ﷺ ziyarət etməyi böyük bir qənimət bilirdilər.

Nəbilər silsiləsinin gözəl xatirələri ilə dolu olan, imanlı qəlblərin ruhaniyyətləri ilə bəslənən və aşiqanə qözyaşları ilə sulanan bu mübarək torpaqlarda arif bir könüllə həcc və ümrə ibadətini yerinə yetirənlər, orada bir çox peyğəmbərin əziz xatirəsindən də feyz alarlar. O müqəddəs yerlərdə həcc və ümrə ibadətləri ibadət həyatının müstəsna bir tərəqqi səbəbidir. Həcc zamanı insan ilahi əzəmət qarşısında heçliyini xatırlayır və geydiyi ehramlarla bir növ kəfən ab-havasına girməyin duyğu və idrakı içində yaşayır. Bu baxımdan, həcdə bəlkə də ən mühüm məqam *"ölmədən əvvəl ölmək"* sirrini dəfələrlə yaşayaraq qəlbən canlı qala bilmək və **"Rəbbinə dön..."** (əl-Fəcr, 28) şəklindəki ilahi dəvətin vəcdi içində olmaqdır.

Bundan başqa, ehrama bürünənlər müəyyən bir vaxt bəzi halalların belə qadağan olması səbəbi ilə haramlardan nə qədər uzaq olmağın lazım olduğunun

bir başqa təlqinini hiss edərlər. Ehram halında ikən ot qoparmaq, ov ovlamaq, ovçuya ovu göstərmək kimi davranışların qadağan olması ilə də mərhəmət, nəzakət və zərafət dolu bir iman həssaslığına qovuşarlar.

Bütün ibadətlər kimi həcc və ümrə ibadətlərinin də Allah qatında məqbul ola biləcək bir ölçüdə yerinə yetirilməsi iman və irfan ölçüsüdür. Çünki həcc və ümrəni "**məbrur**" olaraq yerinə yetirmək bir növ günahlardan təmizlənmək və Haqqın rizasına qovuşmaqdır. Yəni bu ibadətlərdən arzu edilən nəticə onları ancaq Allah-Təalanın razı olduğu ölçüdə yerinə yetirə bilməklə hasil olur.

Bu mənada Şibli həzrətlərinin həcc etmiş birisinə həccin mənəvi cəhətinə işarə edərək dediyi bu sözlər çox ibrətamizdir:

"Həccə niyyət etdiyində bu günə qədər işlədiyin günahlara tövbə edib sirati-müstəqimə yönəlmədinsə, həqiqətdə niyyət etməmiş olarsan...

Ehram üçün paltarını çıxararkən bütün günahlardan da soyunmadınsa, həqiqətdə ehrama girmiş olmazsan. Həcc üçün qüsl edərkən bu təmizlik səndəki mənəvi kirləri və qəlb xəstəliklərini də təmizləmədisə, həqiqətdə təmizlənmiş olmazsan...

Hərami-şərifə girdiyin vaxt bütün haramları və Haqdan uzaqlaşdıran hər cür söz və davranışı tərk etməyə söz vermədinsə, həqiqətdə Hərama girmiş olmazsan...

Qurban kəsərkən hədsiz nəfsani istəklərini və iradəni Haqqın rizasında yox etmədinsə, həqiqətdə qurban kəsmiş olmazsan...

Şeytan daşlanarkən özündəki cəhaləti və vəsvəsələri də daşlamadınsa, həmçinin səndə elm və irfan hasil olmamışsa, həqiqətdə daş atmış sayılmazsan...

Kəbəni ziyarətdən sonra səndəki ilahi hisslər çoxaldımı, könlün hüzur və sevinclə doldumu? Çünki hədisi-şərifdə:

"Hacılar və ümrə ziyarətini yerinə yetirənlər Allahın ziyarətçiləridir. Ziyarət edilənin ziyarət edənə ikram etməsi bir həqiqətdir" - buyurulur. Sən bu ikramın fərqində olmadınsa, həqiqətdə ziyarət etmış sayılmazsan..."

Xülasə, Şibli həzrətlərinin diqqət çəkmək istədiyi əsas məsələ:

"Allah üçün həcc və ümrəni tam yerinə yetirin!.." (əl-Bəqərə, 196) ilahi fərmanına riayətdir. Şibli həzrətlərinin də işarə etdiyi kimi Allah qatında məbrur olacaq bir həcc və ümrə üçün riayət olunacaq əsas xüsuslar bunlardır:

1. Həccə ixlasla niyyət edib, bunun əksi olan niyyət və davranışlardan uzaqlaşmaq

Allah-Təalanın rizasına nail olub onun ilahi lütflərindən istifadə edə bilmək üçün həcc ibadətinə niyyət edib Allah-Təalaya söz verərkən içimizdə olan nəfsani sözləşmə və insani zəifliklərə də mane olmaq lazımdır ki, ilahi sirr sarayının qonağı olaq. O mübarək məkanlarda, xüsusilə varlıq kitabını bağlamaq və eqoizmdən uzaqlaşmaq lazımdır. Məhz həcc və ümrəyə belə bir ruh halı ilə gedənlər ilahi rəhmət və bərəkətə nail olmaq qapısından keçmiş olarlar. Bundan sonra onların vəzifəsi:

2. Ehram üçün paltalar çıxarılarkən günah paltarlarını da çıxarmaq

Allah rizası üçün edilən həcc və ümrə ziyarəti zamanı yalnız zahiri paltarları deyil, daxili dünyamızdakı mal, məqam və mövqe kimi ehtiraslardan da uzaqlaşaraq təqva paltarına bürünmək lazımdır. Çünki Allah-Təala belə buyurur.

Qurban kəsməkdən əsil məqsəd Həzrət İbrahim və Həzrət İsmayılın təslimiyyətlərinin xatırlanması, onlardakı ilahi hikmətdən nəsib alınması və Allaha ixlas və təqvadan könüllərin xəbərdar olmasıdır. Yəni, orada maddi varlığından ayrılan, özündə bir varlıq hiss etməyən, qısaca, iradəsini Haqqa təslim edən və ilahi eşq atəşi ilə yanmağa meyilli bir dərviş ədası içində olmaq lazımdır.

"Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!" (əş-Şəms, 9)

O müqəddəs iqlimdə könülləri Alla ha bağlayıb dünya işləri ilə məşğul olmaqdan və zərurət xaricində bazarları gəzməkdən uzaq durmaq lazımdır. Çünki bu cür işlərlə məşğul olduqca könüllərdə bir tənbəllik və qəflət ortaya çıxar, o mübarək yerlərin mənəvi ab-havasından istifadə çətinləşər. Buna görə də, Həzrət Ömər ﷺ həcc və ümrə ziyarətini yerinə yetirənlərə vəzifələrini tamamladıqdan sonra lüzumsuz davranışların meydana gəlməməsi üçün dərhal vətənlərinə qayıtmalarını tövsiyə etmişdir.

Ziyarət zamanı ilk öncə Kəbənin Rəbbini axtarmaq və **"Onun bəndələrinə şah damarlarından daha yaxın"** olduğunu dərk etmək lazımdır. **"Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar)..."** ayəsinə görə heç bir şey Ondan gizli qalmayacaqdır. Yəni, dünyəvi istəklərdən uzaqlaşıb qəlbin Haqla bərabər olmasına diqqət edilməlidir. Çünki həcc və ümrənin əsası budur:

3-Maddi və mənəvi yöndən təmizlənmək

Allah Rəsulu ﷺ həcc və ümrə zamanı yerinə yetirilən saleh əməllər vasitəsi ilə hasil olan nəticəni göstərərək, bu mübarək ibadətlərdəki məqsədi belə bəyan edir:

"Həclə ümrənin arasını birləşdirin. Çünki onlar günahı eynilə körüyün dəmirdəki pası təmizlədiyi kimi təmizləyər." (Nəsai, Mənasik, 6; İbn Macə, Mənasik, 3)

"Müsəlman olmaq, hicrət etmək və həcc etmək keçmiş günahları təmizləyər". (Müslim, İman, 192)

Söhbət belə bir təmizlənmədən gedirsə, əlbəttə zəvvarların riayət edəcəyi digər əsas məsələ budur:

4. Haram və şübhəliləri tərk edərək Hərami-Şərifə ədəblə daxil olmaq və dini simvollara təzimlə yanaşmaq.

İlk növbədə bütün ibadət və xeyirlər halal qazancla yerinə yetirilməlidir. Çünki bu ibadətlərdən feyz almaq vücudun bəslənməsi halal qida ilə mümkündür. Xüsusilə həcc ibadətində halal qazancın əhəmiyyətini göstərən bu hədisi-şərif ibrətlə oxunmağa dəyər:

*Ziyarət zamanı ilk öncə Kəbənin Rəbbini axtarmaq və **"Onun bəndələrinə şah damarlarından daha yaxın"** olduğunu dərk etmək lazımdır. **"Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar)..."** ayəsinə görə heç bir şey Ondan gizli qalmayacaqdır. Yəni, dünyəvi istəklərdən uzaqlaşıb qəlbin Haqla bərabər olmasına diqqət edilməlidir. Çünki həcc və ümrənin əsası budur:*

"Kim ki, Kəbəni haram qazancla əldə etdiyi pul ilə ziyarət edərsə, Allaha itaətdən çıxar. Belə bir insan həccə niyyət edərək ehrama bürünüb miniyinin üzəngisinə ayağını basıb dəvəsini hərəkət etdirdikdən sonra "Ləbbeyk, Allahummə Ləbbeyk" deyərsə, göydən bir nida eşidilər: "Sənə nə ləbbeyk, nə də sadeyk. Çünki sənin qazancın da haram, azuqən də haram, miniyin də haramdır. Heç bir savab almadan günahkar olaraq qayıt! Xoşlanmayacağın şeylə qarşılaşacağından ötrü üzüntü hiss et!"

Amma bir şəxs halal pulla həcc səfərinə çıxar, miniyinin üzəngisinə basıb onu hərəkət etdirər və "Ləbbeyk, Allahummə Ləbbeyk" deyərsə, göydən bir nida eşidilər: "Ləbbeyk və sadeyk". Yəni, sənə cavab verdim. Çünki sənin miniyin halal, paltarın halal, azuqən də halaldır. Buyur, çox böyük savablar əldə etmiş və heç bir günaha batmamış olaraq qayıt! Səni məmnun və sevincli edəcək şeylə qarşılaşacağın üçün sevin!" (Heysəmi, III, 209-210)

Həcc zamanında bir çox haramlar vardır ki, onlardan xüsusilə uzaq durmaq lazımdır. Allah-Təala belə buyurur:

"Həcc (mövsümü) məlum olan aylardır (şəvval, zülqədə ayları və zülhiccənin birinci on günü). (Həmin aylar-

da) həcc ziyarəti vacib olan (həcci özünə vacib bilən) şəxsə həcdə olarkən (qadınla) yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq, dava-dalaş etmək yaramaz. Allah gördüyünüz hər bir yaxşı işi bilir. (Həcc və ya axirət üçün) tədarük görün. Ən yaxşı tədarük (azuqə) isə təqvadır (pis əməllərdən çəkinməkdir). Ey ağıl sahibləri, Məndən qorxun!" (əl-Bəqərə, 197)

Bu mənada çirkin sözlər danışmaq, günah işlər görmək, münaqişə etmək kimi qadağalarla yanaşı, bir insanın xətrinə belə dəyməməyə çox diqqət etmək lazımdır. Çünki oradakı izdiham zamanı hacılar hər an bir mömini incitmə təhlükəsi ilə qarşılaşırlar. Bundan uzaqlaşmaq üçün xüsusi ilə təvaf vaxtı hörmət və nəzakətə çox diqqət yetirmək lazımdır. Təvafda dönüş istiqamətinin əksinə hərəkət etmək təvaf edənlərə çox zaman çətinlik yaradır. Buna görə də buna diqqət etmək lazımdır.

Bu izdiham zamanı mehmanxana liftlərində qadın-kişi qarışıqlığına fikir vermək, giriş və çıxışlarda nizam-intizama ciddi şəkildə riayət etmək lazımdır ki, bu ibadət vəcdi ilə etdiyimiz insani davranışlar bizi Haqqa yaxınlaşdırsın, kobud və sərt davranışlar yerini sevgi, mərhəmət, hörmət, nəzakət və zərifliyə tərk etsin.

Bu cür həssasiyyətlər mərhəmət və nəzakət abidəsi olan Rəsulullahın ﷺ çox diqqət etdiyi əhəmiyyətli incəliklərdir. Belə ki, Rəsulullah ﷺ günlərin bir günü Həzrət Ömərə t:

"Ey Ömər! Sən güclü-qüvvətli birisən. Həcəri-Əsvədə toxunmaq üçün insanları itələyərək zəiflərə əziyyət etmə. Nə özün narahat ol, nə də ki, başqalarını narahat et. Tək olduğun vaxt Həcəri-Əsvədi ziyarət et və öp, əks təqdirdə uzaqdan "əl sürtüb, öpmə" işarəsi et, kəlmeyi-tövhidi oxuyaraq və təkbir gətirərək keç!"- buyurmuşdur. (Heysəmi, III, 241; Əhməd, I, 28)

Bu şəkildə qul haqqına riayət etməklə yanaşı, o mübarək məkanlarda zahiri və batini ədəbə də çox diqqət etmək lazımdır. Çünki həccin bir məqsədi də o mübarək məkanlara hörmət və oradakı müqəddəs məqamların xatirəsi və ibadətilə feyzlənib könüllərə səviyyə qazandırmaqdır. Ayədə belə buyurulur:

"Hər kim Allahın ayinlərinə hörmət etsə, (bilsin ki,) bu, qəlblərin təqvasındandır." (əl-Həcc, 32)

Buna görə namaz, Qurani-Kərim, azan, müqəddəs əmanətlərlə Kəbeyi-Müəzzəmə, Səfa-Mərvə təpələri kimi müqəddəs yerlər daim Allahı tərənnüm edər. Buna görə hcc və ümrə zamanı qüsursuz davranıb xüsusi təzim göstərmək lazımdır. Kəbəyə tərəf ayaq uzadaraq oturmaq və ya yatmaq, boş və lüzumsuz danışmaq, xüsusilə Qurani-Kərimi uyğun olmayan bir halda tilavət etmək(oxumaq) və hörmətsizcəsinə onu yerə qoymaq kimi xoş olmayan davranışlardan uzaq durmaq lazımdır.

Digər tərəfdən, o mübarək yerlərdə xəstələnən, yolda qalan, imkanlarını və yaxınlarını itirən, yəni çətin vəziyyətə düşən mömin qardaşlarımızın vəziyyətini başa düşmək və dərdlərinə şərik olmağa çalışılmaq lazımdır. Könüllərin ilahi nəzərgah məkanı olduğunu düşünüb könül incitməməyə, əksinə imkan dairəsində könül qazanmağa çalışılmalıdır.

Möminlərin başqalarına qarşı ürəklərində zərrə qədər nifrət də olmamalıdır.

Təbii ki, kimin nə olduğu bilinməz. Çünki qəlblər, dünyaya bağlı, Allaha açıqdır. Əhəmiyyətli olan o mübarək torpaqlarda məhdud nəfəsləri məhdud vaxtlarda ən qiymətli işlərə sərf etməkdir. Bunun üçün də başqalarının halı ilə həddindən çox məşğul olaraq vaxt itirilməməlidir. Çünki həcdəki halımız eyni zamanda qəlbimizin həssaslığını və mənəvi duyğularımızın dərinliyini ifadə edir.

Xalid Bağdadi həzrətlərinin təsəvvüf yoluna girməzdən əvvəl yaşadığı bu hadisə çox mənalıdır. Xalid Bağdadi həzrətləri həcc üçün yola çıxıb Mədineyi-Münəvvərəyə çatdıqda orada nurani bir şəxslə qarşılaşır. Yəməndən olan bu Haqq dostunun mənəvi cazibədarlığına qapılaraq eynilə cahil bir şəxsin alim birindən nəsihət istəməsi kimi ondan nəsihət istəyir. O şəxs belə deyir:

- "Ey Xalid! Məkkəyə çatanda Kəbədə ədəbə zidd olan bir şey görərsənsə, onun haqqında sui-zənnə (pis fikrə) düşüb səhv bir hökm vermə! Gözünü və qəlbini təcəssüsdən (hər şeyin iç üzünü axtarmaq) uzaq tut! Daxili dünyanı gözəlləşdirməklə məşğul ol!"

İlk baxışda qapalı bir xəbərdarlıq mahiyyətində gerçəkləşən bu ifadə həqiqətdə, Xalidi Bağdadi həzrətləri ilə onu əsas məqamına yüksəldəcək olan Piri-Kamil arasındakı sirli izharlara bir işarədir.

Ancaq Məkkeyi-Mükərrəməyə getdiyində oradakı mənəvi feyzin həyəcanı ilə bir könül sərxoşluğu içinə düşən Xalid Bağdadi həzrətləri bu şəxsin nəsihətini unudaraq bir Cümə günü üst-başı dağınıq, qərib və nurani bir dərvişin Kəbəyə arxasını çevirərək oturub ona baxdığını gördü. İçindən:

- "Bu necə qafil şəxsdir ki, ədəbə uyğun olmayaraq arxasını Kəbəyə çevirib! Görəsən, bu mübarək məqamdan xəbərdar deyilmi?" -deyə düşündü.

Elə bu an həmin şəxs Xalid Bağdadiyə:

- "Ey Xalid! Bilmirsən ki, möminə hörmət Kəbəyə hörmətdən daha fəzilətlidir. Çünki qəlb ilahi nəzər yeridir. Səlim bir qəlb beytullahdır (Allahın evidir). Mədinədəki o saleh şəxsin nəsihətini unutma!" -dedi.

Bu sözlərdən sonra Mövlana Xalid həzrətləri diksindi, bu kimsənin adi deyil, böyük vəlilərdən biri olduğunu başa düşərək dərhal əllərinə sarıldı və üzr istəyərək:

- "Ey saleh insan! Nə olar məni bağışla, məni salikliyə (dərvişliyə) qəbul et!" -deyə xahiş etdi. Dərviş üfüqlərin sirli dərinlikərinə baxaraq:

- "Sənin tərbiyən mənə aid deyil! Sən Hindistanın Dehli şəhərində olan Abdullah Piri Dəhləvi həzrətlərinin tərbiyəsində kamilliyə qovuşacaqsan! Allah uğurlar versin!.." deyib oradan ayrıldı.

Bu qissədən nəticə çıxarmaq baxımından mərhum atam Musanın Əfəndinin nəsihətlərini xatırlatmaq istəyirəm:

"Gedənlərə nəsihətim budur ki; orada xüşunu tərk etməyin. Öz qəlb dünyanızla məşğul olun, vaxtınızı boş-boş şeylərə sərf etməyin. Oradakı mənəvi təcəlilərdən istifadə edin.

Təbii ki, həccə gedərkən insanın ruhaniyyəti ondan asılı olmadan inkişaf edir. Böyük xeyir xidmətlərində olanlar, əksəriyyətlə təkrarən həcc edənlərdir. Həccin mənəvi təcəlliləri ilə səxavət, mərhəmət və şəfqət də inkişaf edər. Belə insanların könlü və əli açılar, imanın həzz və həyəcanı içində sevdiklərindən Allah üçün asanlıqla və sevə-sevə infaq edərlər."

Ayədə belə buyurulur:

"Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz

ki, Allah bilir.” (Ali-İmran, 92) Xülasə, bütün iş:

5. İradəni Haqqın rizasına qurban verməkdir.

Qurban kəsməkdən əsil məqsəd Həzrət İbrahim və Həzrət İsmayılın təslimiyyətlərinin xatırlanması, onlardakı ilahi hikmətdən nəsib alınması və Allaha ixlas və təqvadan könüllərin xəbərdar olmasıdır. Yəni, orada maddi varlığından ayrılan, özündə bir varlıq hiss etməyən, qısaca, iradəsini Haqqa təslim edən və ilahi eşq atəşi ilə yanmağa meyilli bir dərviş ədası içində olmaq lazımdır. Allah-Təala buyurur:

“Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi-qəlbdən etdiyiniz ibadətdir).” (əl-Həcc, 37)

Düşünülməlidir ki, bu yolda Həzrət İbrahim ﷺ da canını Allaha təslim etdi. Görəsən, biz nəfsimizi və malımızı Allah yolunda nə dərəcədə sərf edə bilirik?

Məhz bu fədakarlıqlar üçün ömür boyu bizə düşən bir vəzifə vardır:

6- Şeytanı və nəfsi daşlamaq

Şeytan daşlama daha çox qəlbdəki şeytanı daşlamaq ilə başlayır. Bu, Həzrət İbrahim, Həzrət İsmayıl və Həcər anamızın şeytanı verdiyi vəsvəsələrdən ötrü qovub daşlamalarının bir nişanəsi və xatirəsidir.

Daşlama ilk baxışda lənət mənası daşıyır. Çünki o dövrdə lənətləmə ancaq daş atmaqla edilirdi. Necə ki, şeytana “racim”, yəni daşlanmış, daşa tutulmuş deyilməsi də lənətlənmiş mənasındadır.

Həmişə özümüzü hesaba çəkməliyik ki, görəsən qəlbimizin vəsvəsələri, şübhələri və xətaları nə qədərdir? İbrahim ﷺ Həcər anamız və İsmayılın ﷺ şeytanı və nəfsi daşladıqları andakı ixlas və səmimiyyətlərindən nə qədər nəsib ala bilirik? Görəsən, bu hallar bizi nə qədər duyğu dərinliyinə apara bilib?

Bütün bu mərhələlərlə bəndənin Haqqın hüzuruna çatması üçün arzu etdiyi səviyyə və dəyər budur:

7. Daima zikr və dua halında olmaq

Allah-Təala belə buyurur:

“...Ərəfatdan qayıdarkən Məşərülhəramda Allahı xatırlayın. Sizi doğru yola yönəltdiyi üçün Onu yada salın (Ona dua edin), çünki siz bundan əvvəl (doğru yolu) azanlardan idiniz!” (əl-Bəqərə, 198)

“Həcc mərasimini tamamlayıb qurtardıqda (keçmişdə) ata-babalarınızı yada saldığınız kimi, ondan da artıq Allahı yad edin! İnsanların bəzisi: “Ey Rəbbimiz, bizə nə verəcəksənsə, elə bu dünyada ver!” – deyirlər. Belə şəxslərin axirətdə heç bir payı yoxdur!” (əl-Bəqərə, 200)

Həcc və ümrədə dəfələrlə “Ləbbeyk, Allahummə ləbbeyk” deyilərək daima zikr və dua halında olmaq əmr edilir.

Rəsulullah ﷺ belə buyurmuşdur:

“Təlbiyədə edən elə bir müsəlman yoxdur ki, onun sağında və solunda olan daş, ağac, bərk torpaq onunla birlikdə təlbiyə etməsin. Bu iştirak (sağ və sol tərəfi göstərərək) ərzin son hüduduna qədər davam edər.” (Tirmizi, Həcc, 14/828)

Zikr və dua halının qəlbdə yaxşıca yerləşməsi üçün təlbiyə o qədər əhəmiyyətlidir ki, fərdi ibadətlər, ümumiyyətlə səssiz olduğu halda onu uca səslə söyləmək əmr edilmişdir. Beləliklə bəndə həm özünü, həm də ətrafını qəlb və bədən ahəngi içində bir zikr və dua ilə məşğul edəcəkdir.

Kainatın Fəxri ﷺ belə buyurmuşdur:

“Cəbrayıl ﷺ yanıma gəlib, səhabələrimə və mənimlə birlikdə olanlara təlbiyə gətirərkən səslərini ucaltmalarını söyləməmi əmr etdi”. (Əbu Davud, Mənasik, 26/1814)

Bununla əlaqədar “Hansı həcc daha fəzilətlidir?” -deyə soruşulduqda Rəsulullah ﷺ:

- *“Yüksək səslə təlbiyə deyilən və çox qurban kəsilərək çoxlu qan axıdılan həcc!”* (Tirmizi, Həcc, 14/827) buyurmuşdur.

Həzrət Peyğəmbər ﷺ zikr və dua halının mühafizəsi üçün mübarək məkanlarda namazdan başqa ibadətlərdəki danışıqların necə olmasını belə bəyan etmişdir:

"Beytullah ətrafındakı təvaf namaz kimidir. Fərq ondadır ki, bu zaman danışa bilərsiniz. Kim təvaf sırasında danışarsa, sadəcə xeyir danışsın". (Tirmizi, Həcc, 112/960)

Nəhayət son nəticə olaraq:

8. **Könlün ilahi əfv, feyz və mükafatı dadması zəruridir.**

Hədisi-şərifdə buyurulur:

"Bir ümrə o biri ümrəyə qədər görülənlər üçün kəffarədir. Həcci məbrurun qarşılığı isə ancaq cənnətdir!" (Buxari, Ümrə, 1)

Məhz Hərameynə daxil olan hər mömin qəlbinin arzusu həcc və ümrə ibadətini belə bir müjdə ilə tamamlamaq və bu müjdəyə uyğun olaraq ona verilən nəsib və qismətə qovuşmaq olmalıdır.

Mədineyi-Münəvvərəni ziyarət:

Həcc və ümrədən əvvəl və ya sonra ziyarət edilən Mədineyi-Münəvvərənin sinəsində kainatın ən uca cövhərini daşıdığı unudulmamalıdır. Ona ümmət olmağın həyəcanı ilə ayrı bir ədəb və təzim göstərilməlidir.

Çünki Rəsulullah ﷺ belə buyurmuşdur:

"...İbrahimin عليه السلام Məkkeyi-Mükərrəməni haram (bölgə) qıldığı və onun üçün dua etdiyi kimi, mən də Mədineyi-Münəvvərəni haram bölgə qıldım..." (Buxari, Fəzailul-Mədinə, 6; Müslüm, Həcc, 462)

İmam Büsuri həzrətləri bunu necə də gözəl ifadə etmişdir:

Can və cahan sultanı Peyğəmbərin ﷺ mübarək cismini bağrında saxlayan torpaq qədər gözəl qoxuyan heç bir qoxu yoxdur. O kəs həm xoşbəxt, həm də dövlətlidir ki, o mübarək torpağı öpmüşdür"). Qəsideyi-bürdə, beyt: 58.

Bu məhəbbət və həssasiyyətin bir təzahüridir ki, Məscidi-Nəbinin imamı olan İmam Malik həzrətləri Rəsulullahın ﷺ ayaq basdığı torpağa hörmət əlaməti olaraq Mədineyi-Münəvvərədə miniyə minməz, ayaqqabı belə geyməzdi. O qədər ədəb sahibi idi ki, dəstəmazını pozmaq üçün Mədineyi-Münəvvərədən kənara çıxardı.

Məhz həcc və ümrə edənlərin o iqlimin əziz xatirələrindən layiqincə istifadə edə bilmələri üçün o ülvi məkanlarda ədəb və hörmət duyğuları içində olmaları zəruridir. Çünki həqiqi istifadənin ilk şərti ədəbdir.

Beləliklə, məqbul və məbrur bir həcc və ümrənin mömin könüllərə qazandıracağı fəzilətlər saysızdır. Ancaq həcc və ümrənin ədəbinə riayət edilməyib o mübarək yerlərdə qafillik içində vaxt keçirilərsə, bu ibadətdən layiqincə istifadə etmək mümkün olmaz. Aşağıdakı ifadələr bunu bir daha sübut edir:

Pakistanın mənəvi memarı Məhəmməd İqbal günlərin bir günü Mədinədən qayıdan hacıları ziyarət edərək onlardan bir müsəlman qəlbinin necəliyi sərgiləyən bu sualı soruşur:

- *"Mədineyi-Münəvvərəni ziyarət etdiniz! Mədinənin axirət bazarından könlünüzü hansı hədiyyələrlə doldurdunuz? Gətirdiyiniz maddi hədiyyələr, təkkələr, təsbehlər, namaz xalçaları bir müddət sonra köhnələcək, solacaq və tükənəcək. Solmayan, könüllərə həyat verən Mədinənin ruhani hədiyyələrini necə, gətirdinizmi?*

Hədiyyələrinizin içində Həzrət Əbu Bəkrin doğruluğu və təslimiyyəti, Həzrət Ömərin ədaləti, Həzrət Osmanın həyası və comərdliyi, Həzrət Əlinin həyəcan və cihadı varmı? Bu gün min bir iztirab içində qovrulan İslam dünyasına könlünüzdən bir əsri-səadət həyəcanı verə biləcəksinizmi?"

Ya Rəbb, bizi Hərameyni-Şərifeynin ziyarətilə şərəfləndir! Həcc və ümrə ab-havasında edəcəyimiz ibadət və itaətlərimizi qəbul et!

Amin!

Adem ŞAHİN
ameha0@hotmail.com

ZƏİFLƏRİN YARDIMI

ŞƏKİL-1:

TİMSAH: Biz timsahlar heç vaxt qarnımız toxkən hansısa bir canlıya hücum etmərik. Xidmət edənə xidmət göstərmək, onu qorumaq lazımdır. Cani olsaq da, o qədər də vəfasız deyilik. Bəzən dişlərimizin arasında qalan artıqları yeyən quşlara toxunmuruq.

QUŞ: Uşaqlar daş ilə, böyüklər silahla məni hədəf alırlar. İnsanlar mənim bir tikə ətimdən nə istəyirlər ki? Qarınları acdır desəm, belə deyil. Keflərindən öldürürlər məni. Quşları zövq üçün öldürənlər qarnı toxkən heç bir canlıya qıymayan timsahlardan utanmalıdırlar. İnsanların əlindəki dəni yeməkdənsə, timsahın ağzının içindəki artıqları yemək daha təhlükəsizdir.

İNSAN: Timsahın yerində olsaydım, ləzzətlə yeyərdim quşları. Bu timsah bir az axmaqdır, hər halda?

ŞƏKİL-2:

TİMSAH: Bir neçə gündür ac-yalavac üzürdüm. Bunu bir öldürə bilsəm, bir neçə gün bəs edər mənə. Xortumundan bərk yapışım.

ANA FİL: Beş-on vedrə su içməyə gəldik, başımıza gələnə bax.

BALA FİL: Aman Allahım, anama heç nə olmasın!

ŞƏKİL-3:

TİMSAH: Səni bu suya sala bisəm, işin bitdi. Ay fil, dişlərimdən xilas ola bilməyəcəksən.

ANA FİL: Hər kəs öz bölgəsində güclüdür. Bu timsah məni suya salsa, işim bitəcək. O zaman əlvida dünya həyatı!

BALA FİL: Mən nə edə bilərəm ki? Gücüm çatar görəsən? Kaş, böyük olaydım, anama kömək edə biləydim…

ŞƏKİL-4:

TİMSAH: Hər xoruz öz zibilliyində banlayar, deyirlər. Bu fil məni öz sahəsinə çəkdi. Mübarizəyə davam etməliyəm.

ANA FİL: Şükür Allaha! Ey timsah, sənin ayaqqabı, çanta olmuş halını görmək istəyərdim. Səni öldürüb dərindən istifadə edən insanlar min yaşasın!

BALA FİL: Nə olacaq indi? Anama bir şey olsa, mən nə edərəm?

ŞƏKİL-5

BALA FİL: Ey timsah! Bəlkə üstünə atılarkən sənə olan qəzəbim və anama olan sevgim də fiziki ağırlığıma əlavə oldu. Mənim ağırlığıma tab gətirəcək halın qalmayınca, anamın xortumunu buraxdın.

TİMSAH: Ac qaldıq! Hardan çıxdı bu bala fil? "Sürüdən ayrılan fili timsah qapar." atalar sözünü çox sevirəm. Bundan sonra mən yalnızlığı sevən filləri seçməliyəm.

ANA FİL: Xilas olduq, çox şükür! Ey Timsah, indi sənin üçün peşmanlıq göz yaşları tökmək vaxtıdır.

İNSAN: Ey fil! Xilas oldun deyə sevinmə. O gözəl dişlərini sökmək istəyirəm. Ona görə də səni öldürməliyəm.

Ey timsah, darıxma! Ayaqqabı, çanta olmaq üçün sənə də növbə çatacaq.

NƏTİCƏ:

"Uşaqlarda güc ayaqda, gənclərdə beldə, ixtiyarlarda dildə olur" deyirlər. Uşaq yaşda deyə biləcəyimiz bala fil fiziki ağırlığı və ayaq zərbələri ilə anasını ölümdən xilas etmişdir. Qadınlar, uşaqlar və yaşlıların da çətin zamanlarda edə biləcəkləri kömək hər zaman vardır. Nəmrudun bir ağcaqanad tərəfindən öldürülməsi və hicrət əsnasında mağaraya sığınan Hz. Peyğəmbər (s.ə.s) və dostu Hz. Əbu Bəkrin göyərçin və hörümçək toru tərəfindən qorunması zəif və gücsüz kəlmələri üzərində bizi təkrar düşündürməlidir. Zəif, gücsüz və qərib insanların xeyir duası fil balasının timsahın üstünə atılması kimi təsirli olaraq nicata vəsilə olar. Bu hal zülmə məruz qalanların qarğışı üçün də keçərlidir. Məzlumun qarğışı neçə-neçə güclü və qüvvətli insanların həlak olmasına kifayət edər, hətta artıqlaması ilə...

İsmayıl VƏLİYEV
valiyev1@gmail.com

QƏTİYYƏT İMTAHANINI KEÇ

Böyük uğurlara çatmaq üçün vazkeçilməz şərtlərdən biri də qətiyyətli ola bilməkdir. Heç bir böyük nailiyyət bir neçə cəhdlə əldə edilmir. Zirvələri fəth etmək istəyən hər kəs öncədən dəfələrlə uğursuzluğa düçar olacağına, səhvlər edəcəyinə, gülüş obyektinə çevrilə biləcəyinə razı olmalı və yoluna davam edərkən də bunların və ya qarşılaşacağı bənzər əngəlləyicilərin onu yolundan döndərməsinə icazə verməməlidir. Qətiyyət də məhz budur. Nə olursa olsun, kim nə deyirsə desin, fərqi yoxdu, neçə dəfələrlə məyus olsun bunlara üzülməməli və bütün bu olanlara onun qətiyyətini test edən bir imtahan kimi baxmalıdır. Ümidini itirdikdə, tək, gücsüz qaldıqda, heç kimin və heç nəyin gəlib onu içində olduğu bu haldan qurtaracağını gözləməyib, vaxt itirmədən ən böyük köməkçi olan Allahdan yardım diləyib yenidən və çılqınca irəli atılan, var gücü ilə çalışanlar olacaqdır adlarını tarixə yazdıranlar və gələcəyə yön verənlər. Aşılması imkansız kimi görünən maneələrlə üzləşən, bütün çətinliklərə və deyilənlərə baxmyaraq mən edə bilərəm deyib bu sözünü reallaşdırmaq üçün qətiyyət göstərib istədiyini əldə edən hər kəs çətin vəziyyətlərdə qətiyyət göstərib məşəqqətli günləri keçdikdən sonra uğurun verdiyi o möhtəşəm enerjini təkrar yaşamaq, yenidən özünü sübut eləmək, limitlərinin o tayına keçmək üçün yeni və imkansız sanılanları tapıb onlarla üzləşməyi və etdiyi xariqüladə və inanılması çətin seçimləri və icraatları ilə istədiyini əldə edir.

Bu şəxslər insanın nələrə qadir olduğunu, istədikdən, planlı və disiplinli şəkildə çalışdıqdan sonra əldə edəcəklərimizin nələr ola biləcəyinə dair inanclarımızı yenidən gözdən keçirməyə və limitlərimizi bir addim daha irəliyə düşünməmizə səbəb olublar və olurlar.

Demək olar ki, hər kəs uğurlu olmaq həyatını arzuladığı kimi yaşamaq istəyir. Lakın lazım olan qətiyyəti göstərənlərin sayı yox deyiləcək qədər azdır. İstədyimiz hər şeyə saniyələr içində çata bilməyi arzulayırıq, lakın tələb olunanları etmək lazım gəldikdə saysız bəhanələrlə başımızı quma soxuruq.

Həyatda aldıgımız hər şey üçün ödəniş etdiyimiz kimi, xəyallarımızın da qiymətini ödəməliyik ki, əldə edə bilək. Əks təqdirdə qismətim belə imiş deyib əvvəlki kimi yaşamağa davam etmək məcburiyyətində qalacağıq.

Qarşılaşdığımız heç bir problem bizimlə həmişəlik qalmaq üçün gəlməyib onun da bir son istifadə tarixi var. Buna görə də bəzən əlimizdən bir şey gəlmədiyini hiss etdiyimizdə ruhdan düşüb vaz keçməməli, sadəcə olaraq zamana buraxmalı və səbirlə gözləməliyik.

Qarşılaşdığımız heç bir problem bizimlə həmişəlik qalmaq üçün gəlməyib onun da bir son istifadə tarixi var. Buna görə də bəzən əlimizdən bir şey gəlmədiyini hiss etdiyimizdə ruhdan düşüb vaz keçməməli, sadəcə olaraq zamana buraxmalı və səbirlə gözləməliyik.

Çətinliklərin ardarda gəldiyi anlar da olur bəzən. Bu çətinliklərlə savaşarkən aldığımız zərbələr özümüzə olan inamımızı, güvənimizi zədələyir. Bu ardıcıl gələn zərbələr bizə artıq nə ediriksə edək heç bir şeyin dəyişməyəcəyinə, bacarıqsız olduğumuza inanıb bunu qəbul etməyimizə səbəb olur. Özümüz haqqında inanaraq qəbul etdiyimiz hər fikir öz-özünü reallaşdırır və bizim bir parçamız halına gəlir.

Əlimizdən heç bir şey gəlmədiyini hiss etdiyimizdə, buna inandığımızda, bu halla razılaşdığımızda, hər şeyin bizi əngəlləyirmiş kimi göründüyü anlarda ehtiyatlı və qətiyyətli olmalıyıq. Nəyə görə ehtiyatlı? Çünki bu cür bir ruh halında olan insan özü haqqında hər-hansı zəiflədici bir inancı mənimsəməyə daha meyilli olur. Qətiyyətli də ona görə ki, heç bir şey edə bilmirəm, mənlik deyil kimi fikirlərin zehnimizə hücum edib həmişəlik yer etmək və ömür boyu bizi əngəlləməsinə icazə verməyib, bu mənim istedadım, potensialımla bağlı bir fakt deyil, əksinə olanlar sadəcə olaraq seçdiyim yolun yanlış olduğunun bir göstəricisidir deyib ən uyğun yolu tapmaq üçün yeni metodlar axtarmağa başlamaq lazımdır.

Qətiyyətli olmaq hədəfdə dəyişməz olmaq deməkdir. Yoxsa hədəfə çatmaq üçün bir yol seçib işə yarasa da, yaramasa da israrla o yolda davam etmək deyildir.

Qətiyyət ən faydalı olanı tapana qədər saysız cəhdlər etmək və ən faydalı olanı tapana qədər vaz keçməməkdir.

ETİQAD-İNAM

Şübhədən inama yol tutmuşam mən,
Özümü özüm də unutmuşam mən.
Bilmirəm özümdə mən kiməm, nəyəm?
Özümə bir qulam, hakiməm, nəyəm?

Bəzən pislə yaxşı, uzaqla yaxın
qarışır,
Gözümdə dəyişir aləm.
Məələklə şeytanın, haqla nahaqqın
Savaş meydanına çevrilir sinəm.
İnamın önündə şübhəm baş əyir
İnama inamla getdiyim zaman.
Amma möcüzələr girə bilməyir
Ağlımın taybatay qapılarından.
Günəş sirr,
Ay da sirr,
Ulduzlar da sirr.
Nə vaxt açılacaq bu sirr düyünü?
Ağlın kiçikliyi qavraya bilmir
Xaliqin ölçüsüz böyüklüyünü.

Onda etiqadı dərhal arxa cərgədən
Dərhal köməyimə çağırıram mən.
Beləcə gedirəm inama doğru.
Bilmirəm, inama gedən yolmu bu?

Suallar beynimi deşir günbəgün,
Özümə ən böyük sirrəm özüm də.
Qeyri-adiliklər bəlkə bununçün
Dönür möcüzəyə mənim gözümdə?

Elə yol gedirəm, yol uzun, yoxuş,
Son ucu görünmür gözə mənzilin
Çatdığım hər mənzil başlanğıcıymış
Getmək istədiyim təzə mənzilin.

Bəxtiyar VAHABZADƏ

Ömər MƏMMƏDOV
o_memmedov@hotmail.com

DƏMƏŞQ

İslam ölkələri arasında qədimliyi ilə seçilən tarixi, əsrarəngiz gözəlliyi, möhtəşəm abidələri, böyük qalaları ilə tanınmış, bir çox dövlətlərə paytaxt olmuş Dəməşq şəhəri…

Bu gün Dəməşq şəhərinin ərazisi 105 km², əhalisi isə 1 yanvar 2008-ci il tarixinə olan rəsmi statistikaya əsasən 1.684 milyon nəfərdir. Şəhər əhalisinin 90%-ni ərəblər təşkil edir. Ərəblərdən savayı şəhərdə Türk, Kürd və Avropa məhəllələri də mövcuddur. Şəhərdə irili-xırdalı 300-dən artıq məscid mövcuddur. Şəhər əhalisinin 100000-dən çox vətəndaşı pravoslav və ya katolik xristianlarıdır.

Dünyanın qədim şəhərlərindən olan Dəməşq hələ e.ə. 13 əsrin əvvəllərindən e.ə. 732-ci ilə qədər Dəməşq padşahlığının paytaxtı olmuşdur. Paytaxtlar arasında qədimliyi ilə seçilən Dəməşq şəhəri barədə ilkin məlumatlar e.ə 1500-cü ilə təsadüf edilir. Tarix boyunca Dəməşq assuriyalılar, farslar, makedoniyalılar, romalılar tərəfindən dəfələrlə təzyiqə və az qala məhv olmağa məruz qalıb, lakin bir müddətdən sonra ticarət və mədəniyyət mərkəzi kimi yenidən dirçəlmişdir.

Rəsulullahın on iki yaşlarında əmisi Əbu Taliblə ticarət səfərində rahib Bahira ilə məşhur görüşü də məhz Şam, indiki Dəməşq şəhərində olmuşdur.

Miladi 635-ci ildə ərəblər tərəfindən fəth olunan Dəməşq 661-750-ci illərdə Əməvilər xilafətinin paytaxtı olduğundan müsəlman dünyasının ən böyük siyasi, dini, və ticarət mərkəzinə çevrilir. Bir çox səhabənin, o cümlədən Rəsulullahın yanıq səsli müəzzini Həzrət Bilal Həbəşinin də məzarı buradadır. Dəməşq eyni zamanda İslam dünyasında Ümeyyə Camesi ilə də məşhurdur. 705-ci

Rəsulullahın on iki yaşlarında əmisi Əbu Taliblə ticarət səfərində rahib Bahira ilə məşhur görüşü də məhz Şam, indiki Dəməşq şəhərində olmuşdur.
Bir çox səhabənin, o cümlədən Rəsulullahın yanıq səsli müəzzini Həzrət Bilal Həbəşinin də məzarı buradadır.

ildə Ümeyyə sülaləsindən olan xəlifə Vəlid ibn Əbdülməlik Dəməşqdə möhtəşəm abidə tikdirmək istəyirdi. Bu abidə ərəb dünyasının digər monumental tikililərini kölgədə qoymalı idi.

Ümeyyə məscidi İslamın müqəddəs abidəsi olmaqla ilk dini tikili oldu ki, memarlıq formasında müsəlmanların dini təsəvvürlərini özündə əks etdirmişdi. Yeni məscidi Bizans məbədinin yerində tikmək qərara alındı. Məbəd söküldü, onun materialları isə məscidin tikintisində istifadə olundu. Həmin dövrün mədəniyyət mərkəzlərindən – Afina, Roma, Konstantinapoldan, ərəb ölkələrindən ən yaxşı rəssamlar, memarlar, daş ustaları dəvət edilmişdi. 10 il ərzində məscidin inşasına 12000-ə yaxın işçi cəlb olunmuşdu. Məscidin interyerinin tərtibatı üçün perlamutr, mirvari və qızıldan geniş istifadə edilmişdi. Qızıl fonda mozaikalarla, mərmər üzərində inkrustasiya olunmuş oyma naxışlarla bəzədilmiş məscid 13 əsr keçdikdən sonra, onlarla müharibədən, yanğınlardan, talanlardan keçsə də, uzun illər boş qalsa da indiki dövrdə də öz formasının möhtəşəmliyi və gözəlliyi ilə bizi heyran qoyur. Əməvilər Məscidi də adlandırılan bu cameni şəhərin simvolu adlandırmaq olar. Məsciddə

4 minarə mövcuddur. Məscidin cənub-şərq hissəsində ucalan minarə isə İsanın (ə) adını daşıyır. İnanclara görə İsa peyğəmbər həmin göydən yerə enərkən həmin minarəyə enəcəkdir. Məhəmməd əleyhissəlamın adını daşıyan minarə isə 1184-cü ildə inşa olunub. Qərb minarəsi əl-qərbiyyə adlanır, XV əsrdə tikilib. Həmçinin Həzrət Zəkəriyyə Peyğəmbərin oğlu Yəhya Peyğəmbərin də türbəsi bu məsciddədir.

13 və 14-cü əsrlərdə monqolların hücumlarına məruz qalan şəhər Teymurləngin ordusu tərəfindən dağıdılır. 1516-cı ildən 1-ci dünya müharibəsinə qədər Suriya və Dəməşq Osmanlı imperiyasının tərkibinə daxil olur. Minilliklər keçdikcə, əhalisi dəyişdikcə burada fərqli məbədlər ucaldılmışdı.

Müasir Dəməşq Barada çayının hər iki sahilində Qasyon dağının ətəklərində, dəniz səviyyəsindən təxminən 700 m hündürlükdə yerləşir. Qədim şəhərlər kimi Dəməşqin də köhnə və yeni hissələri mövcuddur. Şəhərin yeni tikililəri çox olduğundan şəhər daha çox Avropa görkəmini xatırladır, amma bütün yeni tikililər ərəb memarlıq üslubunu özündə saxlayır. Dəməşqin qədim hissəsi (mədinə) yaxşı mühafizə olunmuş qala divarı ilə əhatə olunub. Şəhərin qədim girişləri olan Bab Tumə, Bab Şərqi, Bab Hərir və Bab əs-Səlam darvazaları indiyədək qorunub saxlanmışdır. Şəhərin köhnə hissəsində onlarca qədim bina və tarixi abidələr var. Dünya üzrə tanınmış Həmidiyyə bazarı və Ğuta vadi də Dəməşqdə yerləşir. Dəməşq poladı dünyada özünəməxsusluğu ilə seçilir.

Anar QURBANOV

HƏCLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏR

1. Həcc mərasiminin sonunda kəsilən qurbanın Məkkə torpaqlarında kəsilməsi mütləqdir? Ümumiyyətlə bu haqda ətraflı məlumat verin.

Həcc və ümrə mənasiki (əməlləri) ilə bağlı kəsilən qurbanlara "hədy" deyilir. Hədy Kəbəyə və Həram bölgəsinə hədiyyə etmək məqsədilə kəsilən qurban mənasına gəlir. Qurban bayramından ötrü kəsilən qurbanlara isə "udhiyyə" deyilir. Hökm baxımından bu iki növ qurban bir-birindən fərqlənsə də, kəsiləcək heyvan növləri və bunlarda tələb olunan şərtlər nöqteyi-nəzərindən aralarında hər hansı fərq yoxdur. Çünki udhiyyədə olduğu kimi hədy qurbanı da dəvə, mal-qara, qoyun və ya keçi kimi heyvanlardan kəsilir.

Həcc növlərindən ifrad həcci (ümrə etmədən ehrama girərkən yalnız həccə niyyət edərək həcc ibadətini yerinə yetirmək) və ya ümrə edənlərin cəza qurbanının kəsilməsini vacib edən hər hansı hal olmayıbsa, onların hədy qurbanı kəsmələri vacib deyildir. Bunların sadəcə olaraq nafilə qurban kəsmələri müstəhəbdir. Təmättö (həcc aylarında əvvəlcə ümrə üçün ehrama girərək ümrəni tamamladıqdan sonra eyni ilin həcc aylarında həcc üçün təzədən ehrama girmək) və qiran həcci (eyni ilin həcc ayları içində ümrə və həcci bir ehramla etmək) edənlərin isə şükür qurbanı kəsmələri vacibdir. Digər tərəfdən həccin vaciblərindən birini tərk etmək və ya ehram qadağalarından hər hansı birisinə riayət etməmək səbəbilə kəffarə olaraq kəsilən qurban da bir cəza qurbanı kimi hədy qurbanı mahiyyətindədir (bax. Bəqərə, 2/196; Maidə, 5/2, 95, 97; Fəth, 48/25; Həcc, 22/36, 37).

İstərsə vacib, istərsə də nafilə olsun, bütün hədy qurbanları növləri Həram bölgəsində kəsilməlidir. Əks təqdirdə nafilə olanlar istisna olmaqla digərləri yenidən Həram bölgəsində kəsilməlidir. Qurban bayramının ilk üç günündə kəsilən hədy qurbanlarını Minada, bu günlərdən başqa günlərdə kəsilən qurbanların isə Məkkədə kəsilməsi daha fəzilətlidir. İstər vacib, istərsə də nafilə olsun, təmättö və qiran həccinə məxsus hədy qurbanlarından başqa digər hədy qurbanlarının kəsilməsi üçün müəyyən bir vaxt yoxdur. Ancaq bunlardan nafilə olanların bayram günlərində, cəza qurbanlarının isə ehram qadağalarına riayət etməmənin dərhal arxasından gecikdirilmədən kəsilməsi daha fəzilətlidir.

Nafilə olaraq kəsilən hədy qurbanları ilə, təmättö və ya qiran həccindən ötrü kəsilən şükür qurbanlarının ətlərini varlı-kasıb hər kəs yeyə bilər. Bunların ətlərindən sahiblərinin yemələri müstəhəb sayılmışdır (bax. Həcc, 22/28). Ancaq cəza qurbanları ilə həcc etmələrinə bir maneə çıxan şəxslərin (ehsar/müsər) ehramdan çıxmaq üçün kəsəcəyi hədy qurbanının ətlərindən bunların sahibləri, baxmaqla mükəlləf olduqları şəxslər və varlılar yeyə bilməzlər. Bunlardan ancaq Hicaz bölgəsi və ya başqa bölgələrin yoxsulları faydalanır. Odur ki, həcc mövsümündə çox sayda qurbanın kəsilməsi və Hicaz bölgəsinin ət ehtiyacı olmaması səbəbilə, qurban ətlərinin ehtiyacı olan digər yoxsul İslam ölkələrinə göndərilməsi mümkün və caizdir. Son illərdə qurulan böyük soyutma qurğuları və nəqliyyat vasitələrinin köməyi ilə ətlər yoxsulluğun çox olduğu ölkələrə göndərilir.

2. Öz yerinə başqasını Həccə göndərmək olarmı? Bu, nə dərəcədə doğrudur?

Bir şəxsə Həcc ibadəti fərz olduğu halda başqasını vəkalət (niyabət) yolu ilə həccə göndərə bilməsi üçün aşağıdakı halların olması vacibdir:

1. Həmin şəxs vəfat etmiş olmalı və ya cox yaşlı olmalıdır. Bundan əlavə topal olmaq və ya sağalma ümidi qalmayan xəstəlik kimi səbəblərlə insanın özünün şəxsən həcc etməkdən davamlı aciz olmasıdır. Məhz bu səbəbdən müalicə oluna bilən xəstəlik və ya həbs kimi müvəqqəti bir səbəblə yerinə başqasını göndərən bir şəxs adına ediləcək həcc nafilə olur, həmin əngəl ortadan qalxdıqdan sonra şəxsən özünün həccə getməsi vacibdir.

2. Adına həcc ediləcək şəxsə (vəkalət verənə) həcc ibadəti əvvəlcədən fərz olmalıdır. Əks təqdirdə həcc nafilə sayılır.

3. Naib (vəkil) olan şəxs müsəlman, ağlı başında və həddi-büluğa çatmış olmalıdır. Qadın da başqasının adına həcc edə bilər. Çünki Xəsəmli qadının öz atası adına həcc etməsinə Hz. Peyğəmbər (ə.s.ə) icazə vermişdir (bax. Buxari, Həcc, 1, Səyd, 22-24, Məğazi, 77, İstizan, 2).

4. Vəkil ehrama girərkən yalnız müvəkkilinin adına (göndərənin adına) niyyət etməlidir. Vəkil özü üçün də niyyət edərsə və ya bir neçə şəxsdən vəkalət alıb hər birisi üçün niyyət edərsə, öz adına həcc etmiş olar, aldığı yol pullarını da qaytarmalıdır.

5. Vəkil üçün müəyyən bir haqq (bir qiymət) şərt qoşulmamalıdır. Çünki həcc bir ibadətdir, ibadətlər də müəyyən bir haqq qarşılığında deyil, Allahın rizasına nail olmaq üçün edilir.

7. Adına həcc edilən şəxs həcc etməsini vəkildən şəxsən özü istəməlidir. Əks halda icazə və ya vəsiyyət olmadan başqasının adına edilən həclə, həmin şəxsin üzərindən həcc borcu düşməz. Çünki varis istisna olmaqla başqasının yerinə icazəsiz həcc caiz deyildir. Odur ki, övladların həcc etmədən vəfat edən ata-ana adına edəcəyi həcc qəbul olur.

8. Vəkil, həcc ibadətini şəxsən özü yerinə yetirməlidir. Ancaq göndərən şəxs ona bir maneə ilə qarşılaşarsa vəkaləti başqasına dövr etmə səlahiyyəti də verə bilər.

9. Vəkil göndərənin (müvəkkilin) istədiyi həcc növünü etməlidir. Vəkil bu mövzuda sərbəst buraxılmışsa, məqsədəmüvafiq bir həcc növünə niyyət edə bilər.

10. Vəkil göndərən adına ediləcək həcc və ümrə mənasikini (əməllərini) bitirmədikcə öz adına həcc və ya ümrə edə bilməz. Əks halda ziyarəti öz adına etmiş sayılacağı üçün aldığı pulu geri qaytarmalıdır.

Öz həcc borcunu yerinə yetirməmiş şəxsin başqasının yerinə həcc etməsi mümkün olsa da həcc edib həcc əməllərini bilən kimsənin vəkil tutulması daha məqsədəuyğundur. Çünki yaşlılığı səbəbilə həcc edə bilməyən atasının yerinə həcc edib-edə bilməyəcəyini soruşan Xəsəmli qadına Hz. Peyğəmbər, "Onun yerinə həcc et" buyurmuşdur (Buxari, Həcc, 1, Sayd, 22-24, Məğazi, 77, İstizan, 2). Bu hədisin mütləq olmaq mənasına görə, Hz. Peyğəmbər qadının daha əvvəl öz həcc borcunu ifa edib-etmədiyini soruşmamışdır. Malikilərə görə, belə bir həcc məkruhdur.

3. Həcc ibadətində bəzi əməllər var ki, onlara məhdudiyyətlər qoyulur və bu əməlləri işləyən müəyyən kəffarə və cərimə ödəyir. Bu əməllər hansılardır?

Ehrama girən şəxslərə ehramdan çıxana qədər qadağan olan bəzi davranışlar vardır. Bunlara "ehram qadağaları" deyilir. Bu qadağanları aşağıdakılardır:

1. Bədənlə əlaqədar olan qadağalar:

a. Saç, saqqal və ya bığları qırxmaq-qırxdırmaq (bax. Bəqərə 2/196).

b. Qoltuqaltı tükləri ilə vücudun digər yerlərindəki tükləri qırxmaq, yolmaq və ya qoparmaq.

c. Dırnaq kəsmək.

d. Bəzənmək məqsədilə saç, saqqal və bığları boyamaq, qadınların lak və pomadadan istifadə etməsi. Bədənə və ya ehrama ətir sürtmək, ətirli sabundan istifadə etmək (Buxari, Həcc, 21, Libas, 8, 13; Müslim, Həcc, 1, 2).

2. Geyim və geyim əşyası ilə bağlı qadağalar:

Geyimlə əlaqədar qadağalar yalnız kişilərə məxsusudur.

a. Tikişli paltar geyinmək. Lakin belə taxılan kəmər, çiyindən asılan çanta, ayağa geyilən, topuqları açıq ayaqqabı ehram qadağanlarına aid deyildir.

b. Başı və üzü örtmək. Hz. Peyğəmbər həcc əsnasında dəvəsindən düşüb vəfat edən ehramlı səhabə üçün belə demişdir. *"Onun başını örtməyin. O, qiyamət günü təlbiyə gətirərək dirildiləcək"* (Buxari, Cənaiz, 20, 21; Müslim, Həcc, 93, 94, 97-103; Əbu Davud, Cənaiz, 80).

Qadın, ehramda üç xüsusda kişidən ayrılır: Tikişli paltar geymək, məst geymək və başını örtmək. Lakin üzünü örtməsi olmaz. (bax. Buxari, Səyd, 13; Əbu Davud, Mənasik, 31; Tirmizi, Həcc, 18; Nəsai, Mənasik, 33, 39).

c. Əlcək, corab və topuqları örtən ayaqqabı geymək (bax. Yuxarıda qeyd olunan hədis mənbələri).

3. Cinsi mövzularla əlaqədar qadağalar:

a. Cinsi əlaqə və ümumi olaraq cinsi əlaqəyə meyil etdirən davranışlar (bax. Bəqərə, 2/197).

b. Şəhvət hisslərini hərəkətə gətirən sözlər söyləmək:

4. Ov qadağası:

İstər Həram bölgəsinin daxilində, istərsə də xaricində olsun əti yeyilən və ya yeyilməyən hər cür quru heyvanını ovlamaq, ovçuya ovunu (heyvanı) göstərmək və ovlanmasına kömək etmək və ya ov heyvanlarına zərər vermək qadağandır (bax. Maidə, 6/1, 2, 95-97). Dəniz heyvanlarını ovlamaq qadağan olmamaqla yanaşı, qoyun, inək və toyuq kimi ev heyvanların kəsilməsi də ehram qadağasının əhatəsinə daxil deyildir.

5. Haram bölgəsi ilə bağlı qadağalar:

Məkkə şəhəri və ətrafındakı Həram deyilən bölgədəki ov heyvanlarının ovlanması, bitkilərinin kəsilməsi və ya qoparılması istər ehramlı olsun, istər ehramsız olsun hər kəs üçün qadağandır. Bu qadağaların möminlər üçün bir növ ətrafı qorumaqdan ibarət bir təlim-tərbiyə olduğu xüsusunda şübhə yoxdur.

6. Allaha qarşı üsyan etmək və insanlara qarşı pis davranmaq (bax. Bəqərə, 2/197):

a. Füsuq: Allaha itaət etməkdən uzaqlaşıb, üsyan olan sayılan şeyləri etmək.

b. Cidal: Başqaları ilə mübahisə etmək, başqalarını təhqir etmək, bu cür davranışlar daim qadağan olmaqla yanaşı, ehramlı ikən bu kimi davranışlardan daha çox uzaqlaşmaq lazımdır.

Akif HÜSEYİNLİ

MÜDRİKLƏRDƏN ÖYÜDLƏR

Sizə Allahdan qorxmağı və bir neçə pis xüsusiyyətlərdən uzaq olmağı tövsiyə edirəm, həmin pis xüsusiyyətlər bunlardır:
- Həsəd. Hansı ki, həsəd edilən şəxsin sahib olduğu nemətin onun əlindən çıxmasını istəməkdir.
- Təkəbbür. Hansı ki, özünü başqalarından üstün görmək deməkdir.
- Yalançılıq. Hansı ki, hadisənin əksinə söz uydurmaq və fayadasız, boş-boş danışmaqdır.
- Qeybət. Hansı ki, insanların pisliyini onların olmadığı yerlərdə danışmaqdır.
- Hərislik. Hansı ki, dünyadan gözü doymamaqdır.
- Qəzəb. Hansı ki, intiqam duyğusuyla qanın qaynamasıdır.
- Riya. Hansı ki, elədiyi yaxşılığın Allahdan qeyrisinin qiymətləndirməsindən xoşu gəlməkdir.
- Zülm. Hansı ki, nəfsin istəklərini hərfiyyən yerinə yetirməkdir.
Bu pis xüsusiyyətlərdən qorunduqdan sonra ***qorxu*** və ***ümid*** arasında olmağını tövsiyə edirəm.

Əhməd Ər-Rüfai

Qorxu bildiyi günahından ötrü qəlbin Allahdan qorxmasıdır. ***Ümid*** isə Allahın vədindən ümidvar olub rahatlamaqdır.

Dinin yaxşı qəbul etdiyi hər şeyi yerinə yetirə bilməsəniz də ***əmr bil-maruf*** (yaxşılığı əmr) etməyə davam edin.

Dini qadağaların hamısından qoruna bilməsəniz də ***nəhy anil-münkər*** (pisliklərdən uzaqlaşdırmaq) vəzifəsindən əl çəkməyin.

Hər kim səkkiz qrup insanla bərabər olarsa səkkiz xüsusiyyəti artar:
- İdarəçilərlə bərabər olanların təkəbbürü və qəlbi qatılığı,
-Varlılarla bərabər olanların dünyaya və dünyalıqlara hərisliyi,
-Kasıblarla bərabər olanların Allahın bölgüsünə razılıq və təslimiyyəti,
-Uşaqlarla bərabər olanların oyun və vaxt keçirmək arzusu,
-Qadınlarla bərabər olanların cəhalət və şəhvəti,
-Salehlərlə bərabər olanların ibadətə rəğbət və arzusu,
-Alimlərlə bərabər olanların elm və irfan arzusu,
-Fasiqlərlə bərabər olanların günahı və tövbəni gecikdirmək arzuları."

Tövbə ilə Allahın xoşuna gələcək əməllərlə məğfirət qapısına yaxınlaşmağa çalış.

Günahları tərk edərək Allahın cəza qapısından uzaqlaşmağa çalış.

Həqiqi möminin ümidi qorxusu qədər olmalıdır.

Ayağımızla tapdalayıb keçdiyimiz torpaq keçmişlərin üzləri, yanaqları, dilləri dodaqlarıdır. **"Ey bəsirət sahibləri ibrət alın".** (Həşr, 2)

Görmürsünüzmü? Uşaq dünyaya gəldiyi vaxt dünyaya olan hərisliyindəndir ki, əlləri nəyi isə tuturmuş kimi bağlıdır. Dünyadan gedərkən də ovuclarının içi boş olduğu üçün açıqdır.

© 2009 Ummah-Design.com

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

Şər görünəndə bir xeyir, xeyir görünəndə şər ola bilər

Axmaq bir nəfər Hz. İsaya yol yoldaşı oldu. Birlikdə gedərkən o axmaq dərin bir quyunun içində ölmüş birinin sümüklərini gördü və Hz. İsaya dedi:

"Ey yol yoldaşım! Ölüləri diriltmək üçün oxuduğun o mübarək sözləri mənə öyrətsən, mən də insanlara faydalı bir adam olsam, ölülərin sümüklərini diriltsəm olmazmı?" Hz. İsa:

"Sus!" dedi. "O iş sənin edəcəyin bir iş deyil." Amma axmaq adam israr etməyə davam etdi. "Madam ki, mənə öyrətmirsən, heç olmasa o mübarək sözləri sən oxu bu sümüklər dirilsin, olmazmı?"

Hz. İsa çox sıxıldı. "Ya Rəbbi, bu axmaq adamın belə israr etməsi nə üçündür?" dedi.

"Necə olur ki, bu nalayiq adam, öz canının dərdini düşünmür? Öz ölmüş könlünü bir tərəfə qoyub, başqa bir ölüyə dərman axtarır?"

Sonunda Hz. İsa o axmağın dediyini etdi və dua edərək sümüklərə ismi-əzəm oxudu və Allah o sümükləri diriltdi. Dirilən sümüklərin arasından bir aslan peyda oldu və axmaq adamın üstünə atılıb onu parçaladı.

Ey bizə dünyadakı çətin işləri asanlaşdıran Allah! Dünyada olmayacaq şeylərdən, faydasız işlərdən bizi qurtar. Bizə ruzi olaraq görünən bəzi şeylər məgər tələymiş. Allahım hər şeyi necədirsə bizə elə göstər.

Bir yəhudinin Hz. Əliyə (r.a) təklifi

Allahın böyüklüyünü dərk edə bilməyən bir yəhidi günlərin birində Hz. Əliyə dedi:

-" Tutaq ki, yüksək bir damın üstündəsən. Allahın səni qoruyacağına inanırsanmı?

Hz. Əli (r.a) dedi:

-"Bəli. Əlbəttə O, qoruyandır. O, hifz edər, Ğanidir. Bizi körpəliyimizdən bəri daim O mühafizə edir."

Yəhudi:

-"Əgər söylədiyin kimidirsə özünü damdan aşağı at! Allahın səni qoruyacağına tam mənasıyla güvən. Özünü aşağı at ki, həqiqətən Allaha inandığını görüm. İmanını sübut etmiş olarsan."

Hz. Əli bu sözə qəzəbləndi:

-"Sus!" dedi. "Qulun özünü bəlaya ataraq Allahı sınaması heç doğru deyil. Ey axmaq! Ədəbsizlik edib Allahı imtahan etməyə qalxmaq heç kimin həddi deyil. Sınamaq ancaq Allaha yaraşır. O, hər an qullarını imtahan edir. Bu imtahanla içimizdə gizli olan inanclarımızı bizə açıqca göstərir. Adəm (ə.s) cənnətdə işlədiyi xəta ilə Allahı imtahan etdiyini söylədimi?! Rəbbim Sənin qullarına qarşı mərhəmətini yoxlamaq istədim dedimi?! Əlbəttə yox. O zaman ey xeyri, şəri bilməyən nadan adam, sən özünü sına, başqasını deyil! Artıq uzaqlaş yanımdan!"

Ulduz Falı

Yəhudi bir münəccim ulduz falına baxaraq Harun ər-Rəşid haqqında "bu yaxında öləcək!" demişdi. Əlbəttə bu bir ulduz falı idi. Kimə öləcəksən deyilsə mütləq şoka düşər. Harun ər-Rəşid də bu eşitdiyindən istər-istəməz təsirlənmişdi. Birdən falçının dediyi düz çıxsa, necə olacaq? deyə qorxmağa başladı və dərdini baş vəzir Bərməkiyə açdı. Bərməki:

-Ulduz falına inanmayın! Bu yəhudi sizə yalan söyləyir, desə də Harun ər-Rəşid sakit ola bilmirdi. Bərməki Harun ər-Rəşidə istərsəniz bunu sizə isbat edə bilərəm, dedi. Harun ər-Rəşid:

-Əlbəttə! Çox istərdim, dedi.

Bərməki yəhudi falçını yanına çağırdı. Ondan: "Xəlifənin tezliklə öləcəyinə əminsənmi?" deyə soruşdu. Yəhudi: "Bəli, əlbəttə!" dedi. Bərməki falçıya dedi:

-"De görüm, ulduz falına görə sən nə qədər yaşayacaqsan?

Yəhudi öz falına da baxdı və "mən hələ çox yaşayacağam" dedi.

Baş vəzir Bərməki bu cavabı eşidər-eşitməz falçının boynunu vurdurmaq üçün bir cəllad çağırtdırdı. Cəllad gəldi və yəhudi falçının boynunu vurdu. Bərməki Harun ər-Rəşidə yerdə cansız yatan falçını göstərib belə dedi:

-"Hökmdarım! Əgər bu adamın dediyi düz olsaydı, heç ölərdimi? Öz ömrünü hesablaya bilməyən bu bədbəxt başqalarının nə qədər yaşayacağını necə bilər ki? Deməli, ulduz falı yalandır və falçılar ən yalançı millətdir.

Qurani-Kərimdə yer alan bəzi astronomik ayələrə əsaslanaraq; "Quranda da ulduzlar, bürclər haqqında məlumat var,deməli ulduz falı düzdür" deyənlər çox böyük günah içindədirlər və onsuz da dini bilikləri zəif olan millətimizi aldatmaqdadırlar. Biz sadəcə belə insanlara: " Gəlin dinimizi yaşamaq üçün öyrənək, insanımızın sadəlövhlüyündən sui-istifadə etməyək" deyə bilərik.

Elmin açarı sualdır

Cabir (r.a) belə nəql edir:

Bir səfərə çıxmışdıq. Yoldaşlarımızdan birinin başına daş dəydi və yaralandı. Sonra o adam ehtilam oldu. Yanımdakılardan:

"- Mən təyəmmüm edə bilərəm?" - deyə soruşdu.

"- Sən sudan istifadə etməyə qadirsən, sənə izin verildiyini zənn etmirik" - dedilər. Həmin adam yaralı halda yuyundu və bu səbəbdən vəfat etdi. Allah Rəsulunun yanına gələn kimi bu hadisəni ona danışdılar.

Hz. Peyğəmbərimiz (s.ə.s) həddindən çox əsəbiləşdi və bunları söylədi:

" - ...Elmsizliyin şəfası soruşmaqdır. Ona təyəmmüm edib yarasının üstünə bir parça sarıması, sonra sarğının üstündən məsh etməsi, bədəninin yerdə qalan hissəsini də yuması kifayət edərdi." (Əbu Davud, Təharət, 125/337; İbn Macə, Təharət, 93)

Asim HƏMİDOV

İLAHİ MÜJDƏ

Deyirlər ki, yuxular
Çin olmayır hər zaman?
Yuxu da var, çin olub
Edir adamı heyran.

Yox fərqi, yuxu görən
Kiçik, ya böyük olsun,
Təki bütün yuxular
Xoş sonluğa yozulsun!

***

Mustafa Akkadın məşhur filmi var,
"Ər-Risalə/Çağrı". Baxaraq bir gün,
Doqquz-on yaşında bir uşaq aşkar
Onun təsirinə düşdü büsbütün.
Orda görünməyən bir surət vardı,
Özü görünməzdi, səsi gələrdi.
Ordakı musiqi qəlbi alardı,
Hər sözü ürəyə nur səpələrdi.
Həzrət Mühəmməddi o görünməyən,
Hamını özünə məftun eyləyən.
Balaca körpə də Ona vuruldu,
İlahi bir eşqin təşnəsi oldu.
Artdı məhəbbəti onun günbəgün,
Bunda mənasını gördü ömrünün.
Evdə olmasa da bir namaz qılan,
O, namaz qılmağa başladı haman.
Uşaq kamilləşib qabağa getdi,
Ağılda-kamalda yaşını ötdü.
Suallar verərdi ata-anaya,
Onun sözlərindən çıxan mənaya
Böyüklər verməyib bir əhəmiyyət,
–Keçər, uşaqlıqdır, –sanardı, əlbət.
Uşaqda kamillik artıb günbəgün,
Gəldi inanılmaz hala büsbütün.

…Bir gün gözlənilməz əhvalat oldu:
Uşaq, dərsdən evə pərişan gəldi.
Yoxdu üst-başında səliqə-sahman.
Atası məktəbə çağrılan zaman
Hər şey aydın oldu: O, dalaşmışdı.
Elə qəzəblənmiş, elə coşmuşdu,
Özünə gələ də bilmirdi uşaq.
Şagirdlər içində bir yava-yanşaq
Peyğəmbər adına kobud söz deyib,
O söz də buna çox təsir eyləyib.
Dözə bilməyərək bu haqsızlığa,
O da qaldırıbdır yekə bir qovğa.
Ciddi xəbərdarlıq oldu ataya:
-Bir də qoşulmasın o, hər boş şeyə.
Boş şeyə!… Sən onun dediyinə bax,
Ondan kim dərs alıb kamil olacaq?
O, iki cahanın bir Günəşinə
Bir çocuq edirsə rişxənd, ya tənə,
Nə qədər dayazmış bir gör bu insan,
Naşı, bixəbərmiş Haqq Rəsulundan.
Mühəmməd eşqilə yaratdı Allah
İlk insan Adəmi, bu ki, haqdır, haq!
Bulud kölgə salıb uşaqkən hələ
Yerimişdi Onun başı üstüylə.
Onu təqib edən Sürakanın da
Yeriyə bilmədi atı bir an da.
Ona ümmət olmaq istədi Musa!
Bu yarı-yarımçıq müəllim isə…
Cahan Günəşinə dil uzadana
Haq da qazandırdı, dinmədi ona.
Haqlını günahkar sayan o qulun
Bircə adı vardır, tək bircə -Məlun!
"Müəllim" adı tam haramdır ona,
Bu beyni kütləşmiş boynu yoğma!
Uşağın atası öz şəhərində
Ad-sanlı, tanınmış, bir məşhur idi.
Ona müəllimin bu "xəbərində"
Deyilən sözlər çox təsir eylədi.
Saxlaya bilmədi özünü ata,
Nə qədər danladı oğlunu, bu da
Göstərə bilmədi öz təsirini,
Uşaq çəkinmədi, durdu şir kimi:
-Hər kim Peyğəmbərə uzadarsa dil,
Mən dözə bilmirəm, bu mənlik deyil!
Aradan keçməmiş hələ bir müddət,
Atanı məktəbə etdilər dəvət.
Yenə həmin sözlər, həmin şikayət,
Yenə dava-dalaş, köhnə ziddiyyət.
Danlaqlar uşağa etmirdi təsir,
Dəniz tək çalxanır, yel kimi əsir,
Vulkan tək püskürüb, sel kimi coşub,
Hər cür maneəni əzmlə aşıb
Peyğəmbər eşqinə o vuruşurdu.
Bu yolda nə qədər dara düşürdü,
Əsla yorulmurdu, qüvvətlənirdi,
Bezmirdi, dözürdü, şirə dönürdü.

Aylar ötüb-keçdi. Bahar gəlincə
Uşaq xəstələndi. Özü də necə!
Təbiət bəzənib olurdu əlvan,
Uşaqsa solurdu hey zaman-zaman.
Xərçəngə tutuldu zavallı uşaq,
Sən bir bu körpənin qismətinə bax!…
Yox idi bir əlac onun dərdinə
Uşaq üzülürdü hey gündən-günə.
Böyüklər, xoş getsin deyə uşağa,
Durub başladılar namaz qılmağa.
Anası büründü, döndü atası,
Evdə eşidildi Quran sədası.
Olsa da bu işə uşaq çox məmnun,
Dərdinə bir çarə yox idi onun.
Ağıla gəlməyən hallar olurdu:
Hər səhər otağa girəndə ana
Qapı-pəncərəni açıq görürdü.
Heyrətli gəlirdi vəziyyət ona:
Axşam bağlasa da dönəbədönə,
Səhər pəncərələr açıqdı yenə.
Bunu uşaq edir! –"izləyim görək,
Axı nə deməkdir bu iş, nə demək?"
Xəlvəti izlədi ana oğlunu,
Gördü gümanının doğruluğunu:
Gecələr yataqdan qalxaraq uşaq
Gəlib pəncərəyə yaxınlaşaraq,
Açır, nəyi isə o seyr eyləyir,
Sonra pəncərədən əl də yelləyir.
Hara, kimə görən əl eyləyir o?
Kimə, pıçıltıyla nə söyləyir o?
Anlaya bilməyib sözləri ana,
Düşündü xəstəlik güc gəlir ona.
Ana ürəyidir, dözmədi yenə,
Axır sual verdi, o, körpəsinə.
Ana məhəbbəti, ana sevgisi,
Sənin bərabərin varmı dünyada?
Allah sevgisindən sonra sənindi
Ən ulu məhəbbət, ən ulu sevda!
Belə nəql edilir Rəsulallahdan:
Bir nəfər soruşur: Olsa bir məqam,
Məni eyni anda çağıran zaman
Peyğəmbər, bir atam, bir də öz anam
Hansı çağırışa yollanım əvvəl?
Bilmirəm nə qərar verim mən buna.
Dedi Rəsulallah: Sonda mənə gəl,
Ən əvvəl anana, sonra atana!
Bəlkə biz bilməyən elə qüdrət var,
Onunçün ucadır belə analar?…
Oğul gizlətməkdə etsə də israr
Axır demək oldu sonuncu qərar.
Dedi: Ana, açıb pəncərəmizdən
Salam göndərərək Peyğəmbərə mən:
"Sən, ey Badi-Səba, rica edirəm,
Səmti-Hərameynə düşərsə yolun,
Yetir salamımı, gəlir qəlbimdən,
Yetir hüzuruna, yetir Rəsulun!"
Salam göndərirəm hər axşam-sabah
Axır ki, bir dəfə çatar, İnşallah!

***

Xəstəlik artırdı onda günbəgün
Taqət qalmamışdı yerimək üçün.
Səhər yeməyinin vaxtıydı, bir gün
Ata-anasının yanına gəldi.
Axşam gördüyünü söyləmək üçün
Özünü topladı, qəddi düzəldi.
Fəqət gözlərinin dərinliyində
Bir az qorxu vardı, bir az da sevinc,
Başladı, körpənin hər dediyində
Vardı bir xoş niyyət, xoş ovqat, xoş uc:
-Axşam uzanmışdım oz çarpayımda
İkiyə ayrıldı evin tavanı,
Gördüm aralıqdan enən bir anda
Ağappaq geyinmiş iki adamı.
Onlar söylədilər mənə: Sən çoxdan
Bu yorğan-döşəkdə xəstə yatırsan.
Səni, istəyirsən gəzdirək bir az,
Həm hava alarsan, həm dincələrsən.
Mən də razılaşdım, dedim pis olmaz,
Məni qaldırdılar göylərə həmən.
Kiçik görünməyə başladı necə
Ev də, məhəllə də, şəhərimiz də,
Görünməz olaraq gözdən itincə
Möhtəşəm saraya yetişdik biz də.
Elə oyuncaqlar vardı ki, orda,
Ömrümdə heç zaman mən görməmişdim;
Oynadım, dincəldim, xeyli. Axırda
Düşündüm: Nə gözəl yerdi, mən düşdüm!
Məni gətirənin biri bu zaman
Sanki ürəyimdən keçəni bildi,
Səmimi nəzərlə, çox da mehriban
Bir xoş təbəssümlə yanıma gəldi:
Oğul, görürsənmi, burdakı heyvan
Səninçün qurbandır, istərsən kəsək.
Özün də əbədi burda qalarsan.
-Atamı-anamı istəyirəm tək!
Onlar çox nigaran olarlar axı,
Yalnız istəyirəm mən qayıtmağı!
Məni qaytararaq öz yatağıma,
Getdilər, başladım yuxlamağıma.
Bir də ayıldım ki, açılıb səhər,
Allah! Nə gözəldir bu gecəkilər!
Baxdı ata-ana çox bir-birinə,
Bir şey anlamadı söhbətdən yenə!

Ardı gələn sayımızda

Ülvi MƏMMƏDOV
umamedov2002@gmail.com

Artıq Hədiyyə

İstanbulu aldıqdan sonra Fateh Sultan Məhmədə bir çox şair qəsidə təqdim edib bəxşiş alırdılar.

Onlardan biri olan türkmən şairinin beyti isə bu şəkildəymiş:

"Dövlətli Hünkarım, sabahınız xeyirli olsun.
Yediyin bal ilə qaymaq, güzərgahınız çayır olsun."

Padşah şairin bu misralarını çox bəyənir və ona yaxşı bir bəxşiş verir.

Padşahın adamları bu işə təəccüb edirlər və:

"Padşahım, daha yaxşı şeirlərə az bəxşiş verdiyiniz halda buna niyə çox bəxşiş verdiniz?"

Fateh Sultan Məhməd belə cavab verir:

Bu şair digər şairlərin hamısından daha səmimi və yalandan uzaqdır. Yazıq ömründə heç yaxşı yemək və yumşaq bir yataq görməyib. Ən yaxşı yeməyin bal ilə qaymaq, ən yaxşı yerin isə çayır olduğunu sanır."

Ən yaxşı tərəf...

Şair Lilienron həmişə əsil-nəcabəti ilə öyünən bir adama :

- Siz mənə kartofu xatırladırsınız , -deyir. Bu müqayisənin səbəbini soruşanda isə :

- Çünki onun da ən yaxşı tərəfi torpağın altındadır ! -deyə cavab verir..

Sokrat və yoldaşı heç cür yola getmirdilər. Bir gün yoldaşı Sokrata ağzına gələni deyir. Baxır ki, əri heç bir reaksiya vermir; bir vedrə suyu götürüb başından aşağı boşaldır. Sokrat, çox sakit şəkildə:

- «Bu qədər göy gurultusundan sonra bir yağış onsuz da gözləyirdim» deyir.

Yavuz Sultan Səlim bir çox Osmanlı padşahı kimi səfərə çıxacağı yerləri gizli saxlayarmış. Bir səfər hazırlığında, vəzirlərindən biri israrla səfərin ediləcəyi ölkəni soruşduqda, Yavuz ondan:

- «Sən sirr saxlamağı bilirsənmi?» deyə soruşur. Vəzir:

- «Bəli, bilirəm» dedikdə, Yavuz deyir:

- «Yaxşı, mən də bilirəm.»

Necə hesaba çəkər?

Bir nəfər Hz. Əlinin yanına (r.a) gələrək: "Ya Əli! Allah bu qədər insanı necə hesaba çəkər?" -deyə soruşduqda Hz. Əlidən bu cavabı alır: "Necə ruzi verirsə, elə."

Necə bilir?

Bir nəfər Hz. Aişə anamızdan soruşur: “Ey Möminlərin anası, bir insan özünün yaxşılardan olduğunu necə bilər?” Hz. Aişə anamız: “Özünün pislərdən olduğunu bildiyi zaman”, -deyə cavab verir. Həmin şəxs: “Yaxşı, özünün pis insanlardan olduğunu necə bilər?” deyə soruşur. Hz. Aişə anamız bu dəfə də belə deyir: “Özünü yaxşılardan gördüyü zaman.”





Dəvələri qəlbimə bağlamıram

Bir nəfər İmam Əzəmin yanına gələrək: “Ya İmam, mən namazlarımı xüşu içində qıla bilmirəm.

Namazda ikən dəvələrimi otarır, onlarla maraqlanıram. Halbuki siz məndən daha zənginsiniz.

Yaxşı siz ibadət zövqünə necə çatır, ibadətlərinizi xüşu içində necə edirsiniz?” deyə soruşur.

İmam Əzəm Əbu Hənifə həzrətləri belə cavab verir:

“Mən dəvələrimi ürəyimə bağlamıram ki, axıra bağlayıram...”

Nə üçün maaş alırsan

Bir nəfər İmam Əbu Yusufdan bir neçə sual soruşur. Əbu Yusuf sualların bəzilərinə:

«Bilmirəm» cavabı verir. Belə olan təqdirdə həmin adam:

«Bilmirsənsə, dövlət xəzinəsindən niyə boşuna pul alırsan?» deyə deyinməyə başlayır. İmam Əbu Yusuf həmsöhbətinə bu cavabı verir:

«Mən dövlət xəzinəsindən bildiklərim üçün pul alıram. Bilmədiklərim üçün pul almış olsaydım dövlət xəzinəsində pul qalmazdı.»

Elşad KƏRİMLİ

LAZIM OLDUĞU QƏDƏR

Musa (ə.s) əyninə geyəcəyi paltarı olmadığı üçün qumun içinə girmiş kasıb bir adam görür. Kasıb:

"- Ya Musa, mənə dua et. Allah-Təala mənə özümü dolandıracaq qədər dünyalıq versin, yoxsulluq məni məhv etdi."

Musa (ə.s) dua edir, Allah-Təala o kasıba dünyalıq verir. Bir müddət sonra Musa (ə.s) bir izdiham görür. Nə baş verdiyini öyrənmək yaxınlaşdıqda həmin kasıbın izdihamın ortasında olduğunu görür və soruşur:

"- Bu nə haldır, nə baş verir?"

- Bu adam şərab içmiş, dava salmış, dalaşdığı adamı da öldürmüş, indi ondan qisas alınacaq. Musa (ə.s) bu sözləri eşitdikdən sonra Allahın ədalətinə bir kərə daha iman edir və tövbə edərək belə deyir: "Əgər Allah qullarına verdiyi ruzini lazım olduğundan artıq versəydi, yer üzündə nə azğınlıqlar baş verərdi." Deməli, Allah hər kəsə layiq olduğu şeyi vermişdir. Əgər öküzdəki iki buynuz uzunqulaqda olsaydı, heç kimi yanına yaxınlaşmağa qoymazdı. Bəzi acizlər var ki, güc qazanan kimi başqa acizlərin qolunu qırar.

RƏBBİM EHMAL ETMƏZ, İMTAHAN EDƏR

Bir ixtiyar... Ömrünün son dəmlərini yaşayır... Səfərdədir... Azuqəsi bitmiş... Ac, susuzdur... Bir kəndə gəlir. Məscidə gedir... Xoş gəldin deyən yoxdur... Pərişan halına baxıb bir ehtiyacın varmı, yoxmu deyən də yox... Sadəcə boş və donuq gözlərlə baxırlar...

Axşam olur... Namaz qılınır... Yatsı olur... Yenə namaz qılınır... Buyur, deyən olmur... İxtiyar tək başına məsciddə qalır. Allahın evində... Allahın qonağı... Həmin gecə ölür. Bəlkə də aclıqdan... Sübh namazına gələnlər eyni insanlardır. Məsciddə ölüb qalan yad adama qarşı vəzifələrini yerinə yetirirlər... Yuyurlar, kəfənləyirlər və basdırırlar... Basdırıldığı günün səhəri yenə sübh namazı... Bir də nə görsələr yaxşıdı – mehrabda bir kəfən. Bir kəfən və bir kağız parçası... Kağız boş deyil. Bir yazı da yazılmış:

- Biz sizə bir qonaq göndərdik. Həm yorğun, həm də ac idi. Onu qonaq etmədiniz. Nə yedirdiniz, nə də içirdiniz. Alın, istəmirik. Kəfəniniz də sizin olsun!

Gələn hər bir qonaq Allah qonağıdır.

YEDDİ ŞEY

Adamın biri yeddi məsələni öyrənmək üçün bir alimin arxasınca getmiş, yetmiş min fərsəxlik yoldan sonra ona demiş ki: "Mən Allahın sənə verdiyi elmdən faydalanmaq üçün gəldim. Mənə söyləyərsənmi:

Göylərdən daha ağır olan şey nədir?
Dünyadan daha geniş olan şey nədir?
Daşdan daha bərk olan şey nədir?
Atəşdən daha yandırıcı olan şey nədir?
Zəmhərirdən daha soyuq olan şey nədir?
Dənizdən daha dərin olan şey nədir?
Yetimdən daha zəif olan kimdir?

Alim cavab olaraq bunları söylədi:
Məsum bir insana böhtan atmaq göylərdən daha ağırdır,
İmansızın ürəyi daşdan daha sərtdir,
Tamah atəşdən daha yandırıcıdır,
Darlığa düşüncə yaxınlara ehtiyacını ifadə etmək zəmhərirdən daha soyuqdur,
Qənaətkar ürək dənizdən daha dərindir,
Söz daşıyanın hərəkəti üzə çıxarsa o, bir yetimdən daha zəifdir.

YENİ NƏŞRLƏR

Gözəl bir səfərə çıxmaq necə olar sizcə?..
Fərqli bir diyara...
Fərqli dünyaya.
Fəzilət baxımından sıralanarkən o qızıl zəncirin ən sonuncu halqasını tanımağa, tanıtmağa...
Həzrət Vəhşinin cəhalət dövründə, yəni İslama gəlmədən əvvəl işlədiyi günahına görə ömrünün sonuna qədər iztirab çəkərək, necə dastani bir dəyişim keçirdiyini görüb, öyrənməyə...
Və onunla addım-addım dəyişməyə...
Dəyişib düzəlməyə, düzəlib düzəltməyə...
Tamamən gül olmağa, gülə yönəlməyə...
Hazırsınızmı?

İpəkyolu Nəşriyyatı
Bakı şəhəri, Cəfərov qardaşları küç. 16.
Tel: (+994 12) 492 32 23



Qurban, Allaha yaxınlaşmağın başqa bir adı və başqa bir yolu...
Qulluq duyğusuna dair bir xatırlatma və faniliyə dair qəti bir işarə...
Mətanətin ifadəsi və təslimiyyətin qapısı...
Bir ibadət və bir bayram vəsiləsi...
İbrahimin övladı və oğul İsmayılın canıyla imtahanı...
Qurban Allah Təalanın qullarına olan ilahi bir lütf və mükafatının canlı bir xatirəsi, bu xatirənin əbədiyyətə qədər canlı qalması...
Və qurban, gedilən yolun sonunu xatırlayıb, uzaqlara üz tutmağın qəribə bir halı...
Bu fəaliyyət, məna dünyası olduqca dərin və təsirli olan bu mübarək ibadətin hüquqi tərəfini incələyir və dini kriteriyalarını izah edir.
Əsas məlumatların və aktual sualların yer aldığı ətraflı və konkret bir əsər...

İpəkyolu Nəşriyyatı
Bakı şəhəri,
Cəfərov qardaşları küç. 16.
Tel: (+994 12) 492 32 23

Əqidə-iman əsasları bir cəmiyyətin inancı və inanılması fərz olan xüsuslardır. İslamda əməldən əvvəl iman gəlir. Yəni bir insanın doğru inancı olmazsa, əməli nə olursa olsun naqis qalır və qəbul edilmir. Bu kitabda nəyə və necə inanmaq lazım olduğu möhtərəm oxucuya çatdırılır. Səkkiz fəsildən ibarət olan bu kitab geniş oxucu kütləsi üçün hazırlanmışdır.

İpəkyolu Nəşriyyatı
Bakı şəhəri, Cəfərov qardaşları küç. 16.
Tel: (+994 12) 492 32 23



Qafqaz İslam Ordusunun 93-cü İldönümü

Sentyabr ayının 15-də Nuru Paşanın rəhbərliyindəki Qafqaz İslam Ordusunun 1918-ci ildə Bakını Rus-Erməni işğalından azad etməsinin 93-cü ildönümü mərasimlə yad edildi. Mərasimdə Gəncliyə Yardım Fondunun prezidenti cənab Ahmet Tecim və fondun nümayəndə heyəti iştirak etmişdir.

Azərbaycan və Türkiyə şəhidlərinin qucaq-qucağa yatdığı şəhidlər xiyabanına çələnglərin qoyulması ilə başlayan mərasim daha sonra millət vəkili Musa Qasımlının T.C. Bakı Böyükelçiyində verdiyi konfransla davam etdi. TRT Bakı Təmsilçiliyi mövzuyla əlaqəli hazırladığı sənədli filmi qonaqlara təqdim etdi.

Bundan başqa T.C. Bakı Böyükelçisi Hulusi Kılıç Böyükelçiliyin çox məqsədli istifadə üçün nəzərdə tutulan salonuna Nuri Paşa salonu ismini verdiklərini açıqladı və açılış lentini kəsdi.

"Bəs Qarabağ?!" yazı müsabiqəsinin yekun mərasimi

Sentyabr ayının 22-də Gəncliyə Yardım Fondunda Azərbaycan Gənclərinin Avropaya İnteqrasiya Təşkilatının (AGAT) təşkil etdiyi "Bəs Qarabağ?!" yazı müsabiqəsinin yekun mərasimi keçirilib.

"Facebazar" şirkətinin dəstəyi ilə baş tutan layihə çərçivəsində nəşr olunmuş, iştirakçıların yazdığı məqalələrdən ibarət "Bəs Qarabağ?!" jurnalı da təqdim olunub. Tədbiri giriş sözü ilə açan təşkilat sədri Gülsel Səfərova bildirib ki, altı aydan çox davam edən bu layihə çərçivəsində ölkənin aparıcı təhsil ocaqlarında 10-dan artıq təqdimat keçirilib. İlkin olaraq 53, sonra 16 nəfər seçilib. Son olaraq isə 5 nəfər finalçı müəyyən edilib. "Biz bu müsabiqəni ona görə təşkil etdik ki, bu münaqişə və yaranmış beynəlxalq vəziyyət barədə həvəskar yazarların münasibətini də öyrənək və işıqlandıraq. Finalçıların sadə dillə və həvəskar olaraq yazdıqları məqalələri bir jurnalda topladıq və həmçinin rus və ingilis dillərində də nəşr etdirməyi planlaşdırırıq".

Tədbirdə çıxış edən Gənclər Təşkilatları Milli Şurasının sədri (ARGTMŞ) Fuad Muradov bildirib ki, "Azərbaycanı narahat edən ən vacib məsələ kimi ərazi bütövlüyü məsələsinin uzun müddətdir müzakirə edilməsinə baxmayaraq, hələ də beynəlxalq ictimaiyyətdə birmənalı münasibət yoxdur. Gənclərimizin də bu məsələyə biganə qalmayaraq fəallıq göstərməsi təqdirəlayiq haldır." Onun fikrincə, bu fəaliyyəti internet sahəsində də gücləndirmək lazımdır.

"İrəli" İctimai Birliyininn sədri, millət vəkili Ceyhun Osmanlı da çıxışında vurğuladı ki, "Azərbaycan indi sülh naminə çalışsa da, silahlı mübarizə aparmağa da qadirdir. Qarabağın işğalda olması faktını unutmamaq lazımdır."

Tədbirdə Prezident Administrasiyası, Gənclər və İdman Nazirliyinin və digər təşkilatların nümayəndələri də iştirak edirdilər. Sonda qalib elan olundu. Birinci yerə Səma İsalı, ikinci yerə Əli İsmayılov, üçüncü yerə Laləzar İsmayılova layiq görülmüşdür.

tuwa®

HİCABLI QADIN
GEYİMLƏRİNDƏ
BOL ÇEŞİD VƏ
İNANILMAZ UCUZLUQ

MANTO
TUNİK
KOSTYUM
YUBKA
ŞALVAR

Ünvan: LÖKBATAN
BİNƏ BAZARI
Sıra 7A, korpus 3,
maqazin: 28 (keçid)

Tel: (+994 55) 208 72 55
(+994 12) 408 40 43